

International
Labour
Organization

# MƏCBURİ ƏMƏK VƏ İNSAN ALVERİ

## ƏMƏK MÜFƏTTİŞLƏRİ ÜÇÜN TƏLİMAT KİTABI

Məcburi Əməyə
Qarşı Mübarizə
üzrə Xüsusi
Fəaliyyət Proqramı

# MƏCBURİ ƏMƏK VƏ İNSAN ALVERİ

# ƏMƏK MÜFƏTTİŞLƏRİ ÜÇÜN TƏLİMAT KİTABI

**Məcburi Əməyə Qarşı Mübarizə üzrə Xüsusi Fəaliyyət Proqramı**

# MƏCBURİ ƏMƏK VƏ İNSAN ALVERİ

## Əmək müfəttişləri üçün təlimat kitabı

# MƏCBURİ ƏMƏK VƏ İNSAN ALVERİ

## Əmək müfəttişləri üçün təlimat kitabı

**Beate Andrees**

Beynəlxalq Əmək Təşkilatı
2010

Copyright © Beynəlxalq Əmək Təşkilatı 2010
İlk Nəşr - 2010

Beynəlxalq Əmək Təşkilatının nəşrlərinin müəllif hüquqları Ümumdünya Müəllif Hüquqlarına dair Konvensiyanın 2-ci Protokoluna uyğun olaraq qorunur. Lakin, bu nəşrlərin kiçik hissələri müəllifin adının qeyd olunması şərtilə icazəsiz çap oluna bilər. Təkrar çap və tərcümə üçün icazə almaq məqsədilə bu ünvana müraciət oluna bilər: ILO Publications (Rights and Permissions), International Labour Office, CH-1211 Geneva 22, Switzerland, və ya electron poçt: pubdroit@ilo.org. Beynəlxalq Əmək Təşkilatı bu cür müraciətləri müsbət qarşılayır.

Təkrar istehsal hüququ təşkilatlarında qeydiyyatdan keçmiş kitabxanalar, institutlar və digər istifadəçilər onlara verilmiş xüsusi lisenziya əsasında bu materialın nüsxəsini çıxara bilərlər. Sizin ölkənizdəki təkrar istehsal hüququ təşkilatlarını tapmaq üçün www.ifrro.org veb səhifəsinə baxın.

---

BƏT-in Kataloqunda Nəşrə dair Məlumatlar

Andrees, Beate
Məcburi Əmək və İnsan Alveri: Əmək Müfəttişləri üçün Təlimat Kitabı / Beate Andrees; Beynəlxalq Əmək İdarəsi. – Cenevrə: BƏT, 2010

978-92-2-824380-2 (print)
978-92-2-824381-9 (web pdf)

International Labour Office
guide / trainers manual / forced labour / trafficking in persons / labour inspection

Cataloging-in-print information - 13.04. 1

---

BMT-in ümumi praktikasına uyğun olaraq, BƏT-in nəşrlərində istifadə olunan termin və izahlar, eləcə də materialın təqdimatı hər hansı ölkənin, onun ərazisi, sahəsi və ya hüquqlarına dair, və ya sərhədlərin bölünməsinə dair Beynəlxalq Əmək Təşkilatının hər hansı bir rəyini qətiyyən ifadə etmir.

İmzalanmış məqalələr, araşdırma və digər yazılardakı fikirlərə dair məsuliyyət tamamilə onları yazan müəlliflərə aiddir və bu nəşrin çapı heç də həmin fikirlərin Beynəlxalq Əmək Ofisi tərəfindən dəstəkləndiyini ifadə etmir.

Hər hansı firmanın, kommersiya məhsulunun və prosesinin adının çəkilməsi onların Beynəlxalq Əmək Ofisi tərəfindən dəstəkləndiyini bildirmir. Eyni zamanda hər hansı firmanın, kommersiya məhsulunun və prosesinin adının qeyd olunmaması onların Beynəlxalq Əmək Ofisi tərəfindən dəstəklənmədiyini bildirmir.

BƏT-in nəşrləri və elektronik məhsulları böyük kitab satıcılarından və ya BƏT-in bir çox ölkələrdəki Ölkə Ofislərindən və yaxud birbaşa olaraq BƏT Nəşrlərindən əldə oluna bilər, Beynəlxalq Əmək Ofisi, CH-1211 Cenevrə 22, İsveçrə. Kataloqlar və yeni nəşrlərin siyahısı yuxarıda qeyd olunan ünvandan və ya pubvente@ilo.org electron poçtundan pulsuz əldə oluna bilər.

Bizim web səhifəyə baxın: www.ilo.org/publns

---

Azərbaycanda çap olunub

"This publication has been published in the framework of the project “Strengthening of Comprehensive Anti-trafficking Responses in South Caucasus” with the financial assistance of the European Union.

The views expressed herein can in no way be taken to reflect the offical opinion of the European Union."

# Ön Söz

**B**ütün dünyada insan alveri məsələsini həll etmək məqsədilə polis, sərhəd nəzarətçiləri və digər hüquq mühafizə agentliklərinin təlimləndirilməsi üçün ciddi investisiyalar qoyulmuşdur. Amma məcburi əmək və insan alverinin aradan qaldırılması və qarşısının alınmasında əmək müfəttişlərinin çox vacib rolu indiyə kimi yaddan çıxmışdır. Bu məsələlər ciddi kriminal cinayətlər olduğundan Ölkələr və digər iştirakçılar hesab etmişlər ki, məcburi əmək və insan alveri əmək qanunları, onların icrası və ədalət yolu ilə deyil, ən yaxşı halda cinayət qanunları və qaydalarının tətbiqi ilə aradan qaldırıla bilər.

Halbuki indi bəzi ölkələrdə olduğu kimi, əmək müfəttişlikləri bu problemləri nəzarətə götürməli və öz rollarını nəzərə alaraq təklikdə və yaxud digər hüquq mühafizə orqanları ilə birgə onları həll etməlidirlər. Birinci, əmək müfəttişləri ilkin xəbərdarlıq etmək üçün yaxşı silahlanıblar. Özəl iqtisadiyyatda əmək haqqı ödənilməsi, əmək haqqından ədalətsiz tutmalar, saxta müqavilələr, istismaredici işəgötürmə və digər oxşar praktikalar vəziyyətin məcburi əməyə çevrilməsi barədə ilkin işarələrin göstəriciləridir. İkinci, polis və prokurorlarla müqayisədə əmək müfəttişlərinin iş yerlərinə girişi daha asandır; onlar ilkin araşdırma apara və məlumat toplaya bilərlər və bunların əsasında sonradan cinayət işi qaldırıla bilər. Üçüncü, onların hüquq mühafizə orqanları ilə müqayisədə daha çox barışdırıcı rolu olduğundan onların məcburi əmək riski olan vəziyyətlərdə qarşılayıcı və məlumat artırıcı kimi daha vacib funksiyaları ola bilər.

Bu kitab təlim vəsaitidir. O həm əmək müfəttişlərinə dünyada gedən cari məcburi əmək tendensiyaları və onların qarşısında duran vəzifələr barədə məlumat vermək, həm də qlobal səviyyədə məcburi əmək və insan alverinə qarşı daha effektiv mübarizə aparmaq üçün əmək müfəttişliklərinin necə təlimatlandırıla bilmələri barədə müzakirələri qaldırmaq məqsədi güdür. O yaxşı və innovativ praktikaları müəyyən edir, misal üçün Braziliyada Xüsusi Səyyari Müfəttiş Dəstəsi və federal polis zabitləri modeli. Əgər dünya BƏT-in 2015-ci ilədək məcburi əməyin və insan alverinin ləğvinə dair çağırışına cavab vermək istəyirsə, mİlli vəziyyətlərə uyğunlaşdırılmaqla bu kimi modellər başqa yerlərdə də tətbiq olunmalıdır.

Kitabin bu ilk versiyası 2007-ci ilin dekabr ayında Avropa Əmək Müfəttişlərinin Ekspert Görüşündə və eləcə də Çin və Vyetnam da daxil olmaqla Asiya ölkələrinin milli seminarlarında təqdim edilmişdir. Bu ilk nəşrin ingilis və ispan dili versiyaları müvafiq olaraq 2008-ci ilin iyun ayında Cenevrədə keçiriləcək Beynəlxalq Əmək MüfəttişliyiAssosasiyasının 12-ci Konqresində və Latın Amerikası Əmək müfəttişlərinin Limada keçiriləcək xüsusi iclasında təqdim olunmaq üçün hazırlanmışdır.

Bu Kitabın nəşri, İrlandiya və Birləşmiş Krallıq Hökumətlərinin maliyyə yardımı vasitəsilə mümkün olmuşdur. Vəsaitlərin imkan verdiyi təqdirdə biz bu nəşri başqa dillərdə də çap etməkdən məmnun olarıq – bu, məcburi əməyin aradan qaldırılmasına töhfə vermək üçün qlobal səviyyədə əmək müfəttişlərini hərəkətə gətirə bilər.

Roger Plant
Məcburi Əməyə Qarşı Mübarizə üzrə Xüsusi Fəaliyyət Proqramı
*Əsas Prinsiplər və Hüquqlara dair*
*Deklarasiyanın Təbliği Proqramı*

# Təşəkkürlər

**B**u kitabın ərsəyə gəlməsinə bir çox şəxslər töhfə vermişlər. Wolfgang Furhr von Richthofen, Əmək MüfəttişliyiMüfəttişliyi üzrə Beynəlxalq Məsləhətçiyə dünyanın hər yerində əmək müfəttişləri üçün məcburi əməyə dair təlim seminarlarında öz biliyini paylaşdığı üçün xüsusi minnətdarlığımızı bildirmək istəyirik. Onun bir çox ideyaları bu kitabda öz əksini tapmışdır və bu ideyalar onun 2007-ci ildə hazırladığı sənəddən götürülmüşdür. O, həmçinin Beynəlxalq Əmək MüfəttişliyiAssosasiyası (BƏNA) ilə ilkin əlaqə qurmuşdur və bu təşkilat 2006-cı ildən etibarən bizim məcburi əmək və insan alverinə qarşı mübarizəmizə dəstək verir.

Həmçinin BƏT-in bir çox əməkdaşlarına kitabın ilkin layihəsinə verdikləri dəyərli şərhlərə görə təşəkkür etmək istəyirik, xüsusilə Malkolm Gifford (SAFEWORK), Maria Luz Vega (DIALOGUE), Karmen Sottas, Halima Sahraoui, Klayr Marçand, Rosinda Silva (NORMES), Kristian Hess (ACT/EMP), Klaude Akpokavie (ACTRAV), Hans van de Glind (IPEC), Pallavi Rai (HIV/AIDS), və xüsusilə də MƏM-FP-ın işçilərinə yaxşı nümunələr və ən yaxşı təcrübələrin toplanmasında göstərdikləri səylərə görə təşəkkür edilir. Beynəlxalq İşəgötürənlər Təşkilatı da dəyərli şərhlər təqdim etmişdir.

Mən eləcə də Zafar Şahidə (DECLARATION) ilkin qaralama versiyasına rəy verdiyi üçün və Roger Planta mənə bu kitabı yazmaqda və son redaktə verməkdə göstərdiyi yardıma görə təşəkkür etmək istəyirəm. Sonda mən müxtəlif təlim seminarları vasitəsilə dünyanın hər yerində işləyən əmək müfəttişlərinin təcrübəsindən istifadə edə bildiyim üçün onlara hörmətimi bildirirəm. Onların istismar edici əmək fəaliyyətinə qarşı çox zaman çətin şəraitdə apardıqları mübarizədə göstərdikləri şücaət məni bu kitabı yazmağa vadar edən vacib motivlərdən biri olmuşdur.



Beate Andrees

Məcburi Əməyə Qarşı Mübarizə Xüsusi Fəaliyyət Proqramı

*Əsas Prinsiplər və Hüquqlara dair*

*Deklarasiyanın Təbliği Proqramı*

# MÜNDƏRİCAT


**Ön Söz** .......................................................................................................... **VI**

**Təşəkkürlər** .......................................................................................................... **VII**

**GİRİŞ** .......................................................................................................... **1**
- **Kitabın Məqsədləri** .......................................................................................................... 2
- **Bu kitabdan necə istifadə etməli** .......................................................................................................... 2
- **Anlayışlar və konsepsiyalar** .......................................................................................................... 3

**MƏCBURİ ƏMƏK VƏ İNSAN ALVERİ QLOBAL İQTİSADİYYATDA** .................................... **7**
- **Məcburi əməyə dair faktlar və rəqəmlər** .......................................................................................................... 7
- **İqtisadi sektorlar risklə üz-üzə** .......................................................................................................... 9
- **Həssas işçilərin qrupları** .......................................................................................................... 10

**MƏCBURİ ƏMƏYƏ QARŞI MİLLİ STRATEGİYALARDA ƏMƏK MÜFƏTTİŞLƏRİNİN ROLU**......... **11**
- **Məcburi əməyə qarşı qlobal siyasətlərdən milli siyasətlərə** .......................................... 11
- **Əmək müfəttişlərinin vəzifəsi və rolu** .......................................................................................................... 13

**QURBANLARIN MÜƏYYƏN EDİLMƏSİ VƏ MƏCBURİ ƏMƏK HALLARININ ARAŞDIRILMASI**..... **17**
- **Qanunu tətbiqinin çətinlikləri** .......................................................................................................... 17
- **Mümkün məcburi əmək vəziyyətlərinin indikatorları** .......................................................... 18
- **İstintaq texnikaları** .......................................................................................................... 20
- **İstintaq və cərimələr** .......................................................................................................... 23
- **Zərərçəkənlərlə necə davranmalı** .......................................................................................................... 24
- **Əmək müfəttişlərinin etik davranışı** .......................................................................................................... 26
- **Digər tərəfdaşlarla əməkdaşlıq** .......................................................................................................... 27
- **Əməkdaşlığın növləri** .......................................................................................................... 29
- **Əmək müfəttişlərinin təhlükəsizliyi** .......................................................................................................... 31

**QEYRİ-FORMAL İQTİSADİYYAT VƏ QEYRİ-QANUNİ İŞƏGÖTÜRMƏ İLƏ ƏLAQƏLƏR** ............. **32**
- **Qabaqlama və məlumatlılığın artırılmasının vacibliyi** .......................................................... 32
- **Qeyri-formal iqtisadiyyatda məcburi əmək** .......................................................................................................... 33
- **Qeyri-qanuni işəgötürməyə nəzarət** .......................................................................................................... 35
- **Özəl işəgötürmə agentlikləri və təminat kanallarına nəzarət** .......................................... 36

**TƏLİM MODULLARI VƏ ÖYRƏNMƏ FƏALİYYƏTLƏRİ** .......................................................... **40**
- **Beş günlük seminar** .......................................................................................................... 41
- **Üç-günlük məşğələ**.......................................................................................................... 43
- **Əlavə 1: Öyrənmə tədbirləri** .......................................................................................................... 45
- **Əlavə 2: Kazuslar** .......................................................................................................... 48
- **Əlavə 3: Hüquqi Sənədlər** .......................................................................................................... 52
- **Əlavə 4: Digər mənbələr** .......................................................................................................... 58

# GİRİŞ

**M**əcburi əməyin, eləcə də insan alverinin cari formaları çox zaman cinayət kimi nəzərə alınır və əmək müfəttişlərinin daxil ola bilmədikləri bir sahə kimi təqdim olunur. Bu kitab məcburi əməyin əmək müfəttişlərinə necə aidiyyatı olduğunu, bu halların necə müəyyən edilə biləcəyi və ona qarşı mübarizə vasitələrini izah edir. Əmək müfəttişlərinin məcburi əmək və insan alverinə qarşı beynəlxalq mübarizədə rolunun bir çox səbəbləri vardır:

- Cari məcburi əmək formaları iqtisadiyyatın bir çox sektorlarına mürəkkəb paylama zəncirləri və insanların iş axtarmaq məqsədilə sərhədləri qeyri-qanuni keçməsi vasitəsilə daxil olmuşdur.

- Məcburi əmək və insan alveri həm insan haqqlarının həm də işçilərin hüquqlarının pozulması deməkdir. Məcburi əmək layiqli əməyin anti-tezisidir və məcburi əməkdən azad olmaq dörd fundamental əmək azadlıqlarından biridir və əmək müfəttişləri bu haqqları təbliğ etməli və qorumalıdırlar.

- Məcburi əmək və insan alveri ciddi gəlir gətirən bir sahədir və çox zaman qeyri-qanuni fəaliyyətlər olan vergi gizlədilməsi və sosial müdafiə ödənişlərinin saxtalaşdırılması kimi hallarla əlaqələndirilir.

- Sağlamlıq və təhlükəsizliyə eləcə də qeyri-qanuni işəgötürməyə dair müntəzəm yoxlamalar mümkün məcburi əmək hallarının işarələrinin ortalığa çıxara bilər. Əmək müfəttişləri və digər nəzarət qurumları bu cür halların ortalığa çıxarılmasında mühüm rol oynaya bilərlər.

- Əmək müfəttişləri axtarış barədə qərar olmadan iş yerlərinə girib yoxlama apara bilərlər. Bundan əlavə onların istifadəsində digər vasitələr də vardır. Bu hal onları hüquq mühafizə orqanları üçün vacib tərəfdaşa çevirir.

- Əmək müfəttişlərinin məcburi əməyin qarşısının alınması və zərər çəkənlərin qorunmasında potensial rolu vardır. Beləliklə, onlar hökumət qurumlarının, işəgötürən və işçi təşkilatlarının və QHT-lərin məcburi əmək və insan alveri məsələlərində vacib tərəfdaşlarıdırlar.

# Kitabın Məqsədləri

Bu kitab əsasən əmək müfəttişləri üçün nəzərdə tutulmuşdur amma digər hüquq mühafizə orqanları, məsələn, polis, vergi və miqrasiya orqanları da ondan yararlana bilər. Kitabın əsas məqsədi əmək müfəttişlərinə məcburi əmək və insan alverini anlamaqda kömək etmək, bu məfhumların onların işinə necə aid olduğunu və onların bu cinayətə qarşı qlobal mübarizəsiyə necə dəstək verə biləcəklərini göstərməkdir. Kitab həmçinin əmək müfəttişlərini qanunları icra etməyə və məcburi əmək və insan alverinə qarşı mübarizəyə dair milli strategiyaların icrasında aktiv rol oynamağa həvəsləndirəcəkdir:

- Əmək müfəttişlərinin məcburi əmək və insan alverinə dair anlayışlarını, zərərçəkənlərin tanınması və qarşısının alınması bacarıqlarını artırmaq;
- Əmək müfəttişləri, polis və digər tərəfdaşlar arasında əməkdaşlığı gücləndirmək;
- Zərərçəkənlərin qorunması və xidmətlərə göndərişini yaxşılaşdırmaq;
- “Kölgə” iqtisadiyyatı və qeyri-qanuni işəgötürmə praktikaları ilə olan əlaqələri araşdırmaq;
- Praktiki təlim vasitələri və öyrənmə fəaliyyətləri təklif etmək;
- Əlavə resurs kitabı və təlimat kimi faydalı olmaq.

# Bu kitabdan necə istifadə etməli

Bu kitab təlim kurslarında və dövlət siyasətini formalaşdırarkən istinad kitabı kimi istifadə olunmaq üçün dizayn edilmişdir. Kitabda məcburi əmək və insan alverinə, milli və regional strategiyalar, zərərçəkənlərin müəyyən edilməsi və məcburi əmək hallarının araşdırılmasına dair ən son statistik məlumatlardan istifadə edilir. Burada abbreviaturada verilmiş məliumatlar siyasəti istiqamətləndirmək və məcburi əmək və insan alverini aradan qaldırmaq işinə əmək müfəttişlərinin daha fəal cəlb olunmasına zəmin hazırlamaq məqsədilə verilmişdir. Uyğun yerlərdə digər resurslar və materiallara aid informasiya verilmişdir.

Biz iki təlim modulu hazırlamışıq, biri 5 günlük digəri 3 günlük. Hər iki modul məcburi əmək və insan alverini əhatə edir, modulun tərkibi hər ölkə və ya regionun xüsusi vəziyyətini nəzərə almaqla uyğunlaşdırıla bilər. Bu kitabın əlavələrində oxucular üçün öyrənmə fəaliyyətləri, materiallar, hadisələr və başqa oxu materialları haqda məlumat verilmişdir.

Təlim modulları interaktiv öyrənmə metodları üzərində qurulmuşdur. Bu o deməkdir ki, iştirakçılar fəal şəkildə təlim prosesinə qoşulur və onların fikir və təcrübələri dəyərli bir resurs kimi qəbul edilir. Təlimin aparıcısı bu mübadilə prosesinin təminatçısıdır və öyrənmə prosesi iştirakçının üzərində qurulmalıdır.

İnteraktiv öyrənmə qrup işi, rol oynama və müxtəlif hadisələrin müzakirəsindən ibarətdir. Prosesə prezentasiyalar, video və digər materiallar kömək edir. Bu kitab birgə xüsusi disk təmin edilmişdir və orada müvafiq sənədlər, video materiallar və prezentasiyalar toplanmışdır.

# Anlayışlar və konsepsiyalar

## Əmək müfəttişliyi

**Bu kitabda əmək müfəttişliyinin funksiyaları aşağıdakı kimi müəyyən edilmişdir:**

a) Əmək müfəttişlərinin təmin edə biləcəkləri həddə qədər əmək şəraitinə dair və işçilərin öz işlərini yerinə yetirdikləri zaman onların qorunmasına dair qanuni müddəaların icrasını təmin etmək; buraya iş saatları, maaş, təhlükəsizlik, sağlamlıq və rifah, uşaqların və gənclərin işə götürülməsi və digər müddəalar daxildir;

b) Hüquqi müddəalara uyğun işləmək üçün ən effektiv vasitələrə dair işəgötürən və işçilərə texniki məlimat və dəstək təmin etmək;

c) Mövcud qanunvericilik tərəfindən xüsusi olaraq nəzərə alınmayan çatışmazlıqlar və ya istismar hallarını müvafiq səlahiyyətli qurumun nəzərinə çatdırmaq.

(Maddə 3, Əmək Nəzarətinə (Sənaye və Kommersiyada) dair Konvensiya, No. 81, 1947)



## Məcburi Əmək

**Məcburi əmək anlayışı BƏT-in 29 saylı Məcburi Əməyə dair Konvensiyasında (1930) müəyyən edilmişdir. Bu Konvensiyanın 2-ci maddəsinə əsasən məcburi əmək:**

> “**İstənilən cəza qorxusu ilə, həmin şəxsin könüllü razılığı olmadan, istənilən şəxsi bütün növ işlər icra etməyə və ya xidmətlər göstərməyə vadar etmək.”**

Bu anlayışın bir neçə elementi ətraflı izahat tələb edir:

1. “Bütün iş və yaxud xidmət” dedikdə bütün növ işlər, işəgötürmə və vəzifə nəzərdə tutulur. Buna görə də əmək münasibətinin xüsusiyyəti və ya qanuniliyi kimi faktorlar öz əhəmiyyətini itirir. Məsələn, fahişəlik bəzi ölkələrdə qeyri-qanuni olsa da o yenə də 29 saylı Konvensiyanın əhatəsinə düşə bilər. Ev işi bir çox hallarda əmək qanunu ilə tənzimlənmir; amma, 29 saylı Konvensiyada göstərildiyi kimi məcburi əmək halları şəxsi evlərdə də baş verə bilər.

2. “İstənilən şəxs” dedikdə həm böyüklər həm də uşaqlar nəzərdə tutulur. Eyni zamanda həmin şəxsin məcburi əmək halının qeydə alındığı ölkənin vətəndaşı olub-olmaması da əhəmiyyətsiz faktordur.

3. “Hədə qorxusu altında” dedikdə təkcə cinayət sanksiyaları deyil, eyni zamanda məcbur etmənin müxtəlif formaları, məsələn hədələmə, zorakılıq, şəxsiyyəti təyin edən sənədlərin saxlanması, maaşdan tutmalar və yaxud maaşın ödənilməməsi halları da nəzərdə tutulur. Əsas məsələ odur ki, işçi istənilən vaxt əmək münasibətini pozmaqda azaddır və bu zaman onun heç bir hüququ və ya güzəşti əlindən alına bilməz. Misal olaraq işçinin almalı olduğu maaşı itirmə təhlükəsi və yaxud zorakılıqdan qorunmağa dair hüququ göstərilə bilər.

4. “Könüllü” dedikdə işçinin həmin əmək münasibətinə girmək üçün verdiyi razılıqdır. İşçi əmək müqaviləsini heç bir aldatma və ya məcbur etmə halı olmadan imzalaya bilər, amma o, razılıqla imzalanmış müqaviləni istənilən vaxt ləğv etmə azadlığına malik olmalıdır. Başqa sözlə, azad və məlumatlı razılıq işəgötürmənin əsasını təşkil etməlidir və bu hal bütün əmək münasibəti boyunca davam etməlidir. Əgər işəgötürən və ya işəgötürən aldatma və ya məcbur etmə hallarına yol vemişsə, razılıq öz əhəmiyyətini itirmiş olur.

## İnsan alveri

Məcburi əmək bir çox hallarda insan alverinin nəticəsi olaraq baş verir. Bu hal şəxsin, bir çox hallarda sərhədləri keçərək, istismar məqsədilə daşınması deməkdir. İnsan alveri BMT-in 2000-ci ildə qəbul olunmuş Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Konvensiyasının əlavəsi olan İnsan, xüsusilə Qadın və Uşaq Alverinin Qarşısının Alınması, Məhdudlaşdırılması və Cəzalandırılmasına dair Protokolunda (Palermo Protokolu) təsbit olunmuşdur. Palermo Protokolu insan alverini kontrabandadan istismar, aldatma və məcbur etmə elementləri vasitəsilə ayırmışdır. Protokola görə (maddə 3):

> "İnsan alveri - qorxu və ya güc işlətmə və ya zor işlətmənin başqa formaları, oğurlama, aldatma, tələ qurma, vəzifədən və ya həssas situasiyadan sui istifadə etmə, ödəniş və ya digər xeyir vermək və ya almaq vasitəsilə şəxsin digər şəxs üzərində istismarı məqsədilə razılığının alınmasına nail olmaqla insanların işə götürülməsi, daşınması, köçürülməsi, gəmi ilə daşınması və ya qəbul edilməsi deməkdir. İstismar dedikdə ən azından başqalarının fahişəlik və ya cinsi istismarın digər formaları, məcburi əmək və ya xidmətlər, quldarlıq və ya buna oxşar praktikalar, qulluqçu kimi saxlama (servitude) və ya orqanların çıxarılması halları başa düşülür."

**Bu anlayış kifayət qədər mürəkkəbdir amma aşağıdakı elementlərə bölünə bilər:**

- **Fəaliyyətlər:** işəgötürmə, nəqliyyat, daşınma, gəmi ilə limana çatdırma və ya şəxsin qəbul edilməsi
- **Vasitələr:** güc, aldatma, oğurlama, məcbur etmə, fırıldaqçılıq, hədə-qorxu, vəzifədən və ya həssas vəziyyətdən sui istifadə etmə
- **Məqsəd:** istismar, məcburi əmək və orqanların çıxarılması da daxil olmaqla

Bütün məcburi əmək hallarının heç də hamısının insan alverinin nəticəsi olmadığını anlamaq vacibdir. Bundan əlavə, demək olar ki, bütün insan alveri halları məcburi əməklə nəticələnir (təkcə orqanların çıxarılması istisna olmaqla). BƏT-in nöqteyi nəzərindən yanaşsaq, işçini saxlamaq üçün məcbur etmə və aldatma elementlərindən istifadə olunan məcburi əmək halı ilə **qeyri-standard əmək şəraiti** arasında fərqi görmək vacibdir. İnsanları istismaredici əmək münasibətlərində qalmağa vadar edən müvafiq iqtisadi alternativlərin olmaması halları özü-özlüyündə məcburi əməyi təşkil etməsə də, bu hal Palermo Protokolunda təyin edilən həssas vəziyyəti təşkil edə bilər. Buna görə də şəxsin azad razılığına təsir edə biləcək xarici faktorlar mütləq nəzərə alınmalıdır.

Bundan əlavə Palermo Protokolu uşaqlarla (18 yaşdan aşağı) böyüklərin alveri arasında fərq müəyyən etmişdir. Uşaq alveri hallarında yuxarıda verilmiş qanunsuz vasitələrin heç birinin əhəmiyyəti yoxdur. Uşaq alveri eyni zamanda BƏT-in 182 saylı Konvensiyasında uşaq əməyinin ən pis formalarından biri kimi göstərilmişdir. Bu anlayışların mürəkkəbliyini nəzərə alaraq əmək müfəttişləri üçün aydın indikatorlar və əməliyyat təlimatlarının hazırlanması çox ciddi əhəmiyyət kəsb edir.

**Əlavə 3-də BƏT-in Məcburi Əmək Konvensiyası, digər müvafiq BƏT Konvensiyaları və Palermo Protokolundan çıxarışlar verilmişdir. Onları qrup məşğələlərində diqqətlə oxuyub və müzakirə etməyinizi məsləhət görürük.**



# MƏCBURİ ƏMƏK VƏ İNSAN ALVERİ QLOBAL İQTİSADİYYATDA

## Məcburi əməyə dair faktlar və rəqəmlər

Məcburi əməyin ləğv edilməsi demək olar ki, yarandığı gündən BƏT-in gündəliyində yer alır. İlkin vaxtlarda əsas diqqətin dövlətlər tərəfindən tətbiq edilən məcburi əmək olmasına baxmayaraq, indi əksər cari məcburi əmək hallarının özəl iqtisadiyyatda baş verdiyi qəbul edilir. 2005 və 2007-ci illərdə BƏT məcburi əməyə, onun 29 və 105 saylı Konvensiyalara aid cari manifestləri və hüquqi nəticələrinə dair iki böyük hesabat nəşr etdirmişdir. Hər iki hesabat aydın şəkildə göstərir ki, məcburi əmək halları həm sənayeləşmiş həm də inkişaf etməkdə olan ölkələrdə baş verir. Bu qlobal problemdir və hər ölkəyə müəyyən mənada təsir etmə gücünə malikdir, buna görə də ona qarşı qlobal səy göstərilməlidir. 2005-ci ildə BƏT ilk dəfə olaraq məcburi əmək qurbanları (kişi, qadın və uşaqlar), eləcə də insan alverinin nəticəsində məcburi əmək hallarına dair qlobal təxmini hesablamaları nəşr etdirdi. Aşağıdakı cədvəldən də göründüyü kimi məcburi əmək halları ən çox Asiya və Sakit Okean hövzəsində baş verir və bunun səbəbi kimi ənənəvi borca görə asılılıq hallarının olması göstərilir. Bu həmçinin göstərir ki, sənayeləşmiş və keçid dövrü ölkələrində məcburi əmək əsasən cinsi və əmək istismarı məqsədilə həyata keçirilən insan alverinin nəticəsində baş verir.

| Məcburi Əmək | Cəmi | Alver |
|---|---|---|
| Sənayeləşmiş Ölkələr | 360,000 | 270,000 |
| Keçid-dövrü Ölkələri | 210,000 | 200,000 |
| Asiya və Sakit Okean | 9,490,000 | 1,360,000 |
| Latın Amerika və Karib körfəzi | 1,320,000 | 250,000 |
| Sahara Afrika Ölkələri | 660,000 | 130,000 |
| Yaxın Şərq və Şimali Afrika Ölkələri | 260,000 | 230,000 |
| Dünya | 12,300,000 | 2,440,000 |

BƏT tərəfindən ölkələr üzrə aparılmış araşdırmalar məcburi əmək və məcbur etmə halları barədə kifayət qədər məlumat toplamışdır və bu da göstərir ki, işəgötürənlər külli miqdarda gəlir əldə edirlər. Təkcə insan alverindən illik gəlirin miqdarı nə az nə çox 32 milyard ABŞ dollarına bərabərdir. Adam başına ən çox gəlir gətirən sahə cinsi istismar sahəsidir. Cəmi gəlirin yarısı sənayeləşmiş ölkələrin payına düşür.

**Aşağıda məcburi əməyin müasir dünyamızda rast gəlinən bəzi nümunələri verilib:**

- **Borcdan asılı əməyin ənənəvi formaları** Cənubi Asiyada (məs., Hindistan, Nepal və Pakistan) kənd təsərrüfatı, düyü dəyirmanları, kərpic sexləri və digər iqtisadi fəaliyyət sahələrində müşahidə olunur. Əgər ailənin başçısı olan kişi ehtiyac yarandıqda öz işəgötürənindən avans ödəniş və ya kredit götürmək üçün nəinki öz əməyini eləcə də bütün ailə üzvlərinin əməyini "girov" qoyursa, o zaman borcdan asılı əmək bütün ailəni təsiri altına ala bilər.

- **Borca görə saxlama və zorakılığın digər formaları** Latın Amerikasında yaşayan yerli aborigen və digər kasıb insanları yükvurma, mədən və kənd təsərrüfatı sahələrində məcburi əməyə vadar edə bilər. Bu system kifayət qədər mürəkkəb olan podratçı və sub-podratçılardan ibarət bir sistemdir və onların hamısı bu borclu işçilərdən öz paylarını alırlar, bəzi işçilər heç bir ciddi qazanc əldə etmədən illərlə işləməli olurlar.

- **Məcburi uşaq əməyi** Afrikanın bir çox regionunda geniş yayılıb və bu, uşaqları uzaq şəhərlərdə yaşayan qohumlara qəyyumluğa vermə kimi ənənəvi praktikaya əsaslanır. Valideynlərinə uşaqlarının təhsil almalarına dair vəd verilməsinə baxmayaraq, çox hallarda oğlanlar və qızlar ev qulluqçuları kimi kənd və balıqçılıq təsərüffatında və yaxud seks biznesində qəddarcasına istismar olunurlar. Amma məcburi uşaq əməyi və uşaq alveri təkcə Afrika üçün xarakterik deyildir. BƏT-in təxmini hesablamalarına görə dünyadakı məcburi əmək qurbanlarının 40%-ini uşaqlar təşkil edir.

- **Miqrasiya və istismar edici əmək müqaviləsi sisteminə bağlı məcburi əmək praktikalarına** bügün dünyanın hər yerində rast gəlmək olar. Məsələn, İndoneziya, Hindistan, Filippin və digər Asiya ölkələrindən olan miqrant işçilər əmək müqaviləsinə "borca görə bağlı" vəziyyətə düşürlər, çünki onlara külli miqdarda rüsumlar təyin edilir və onların getdikləri ölkələrdə iş yerlərini dəyişmək imkanları demək olar yoxa bərabərdir. Asiyalı işçilərin əsas hədəf ölkələri Sinqapur, Malayziya və Yaxın Şərq ölkələridir. Avropada əmək agentlikləri miqrant işçilərin istismarına dair hesabatlardan sonra ciddi nəzarətlə üzləşmişlər. Gizli işlə mütəşəkkil cinayət arasında sərhədlər bəzən görünməz formaya çatır.

- **Mütəşəkkil insan alveri cinayəti nəticəsində baş verən məcburi əmək** dünyanın hər yerində seks biznesində rast gəlinə bilər. Bir çox ölkələrdə fahişəliyin gizli xarakter daşıması səbəbindən mütəşəkkil cinayət şəbəkələri barlar, fahişə yuvaları və şəxsi evləri gənc qadın və uşaqlarla təmin edirlər. Ehtimal etmək olar ki, İnternet və turizm seksual məqsədli insan alverini stimullaşdırmışdır. Mütəşəkkil cinayətkarlıq insan alverinin başqa formalarında rast gəlinə bilər, məsələn əməyin istismarı məqsədilə insan alveri. Bir çox hallarda bu fırıldaqçılıqla işə götürmə, reketçilik və miqrant işçinin qazancından gəlir əldə etmək üçün onu qaralamaq yolu ilə edilə bilər.

# İqtisadi sektorlar risklə üz-üzə

Məcburi əmək qurbanlarının müəyyən edilməsi və qorunması üçün daha ciddi səylər göstərilməyincə, məcburi əməyin daha çox təsir etdiyi iqtisadi sektorlar haqqında etibarlı statistik məlumat əldə etmək çətin olaraq qalacaq. BƏT-in hesablamalarına görə insan alveri qurbanlarının 43 faizi kommersiya xarekterli seks biznesində, 32 faizi digər iqtisadi istismar sahələrində və 25 faizi həm əmək həm də cinsi istismar sahələrində istismar olunurlar. Məcburi əməyin və borcdan asılı əməyin digər formaları əsasən ixtisas tələb etməyən iqtisadi sahələrdə baş verir ki, burada işçilərin dövriyyəsi yüksəkdir və işəgötürənlər işçiləri saxlamaqda çətinlik çəkirlər.

**Aşağıda bir çox ölkələrdə məcburi əməyin ciddi problem yaratdığı iqtisadi sektorların tam olmayan siyahısı verilmişdir:**

- Tikinti və kərpic sexləri;
- Kənd təsərrüfatı və bağçılıq;
- Mədən sənayesi və yükləmə;
- Ərzaq emalı və qablaşdırma sənayesi;
- Evdə xidmət və digər xidmət və təmizlik işləri;
- Fabrik işi, tekstil və geyim işləri;
- Restoran və çatdırılma;
- Seks və əyləncə sahəsi;
- Nəqliyyat;
- Qeyri-formal iqtisadiyyatın müxtəlif formaları, məsələn mütəşəkkil dilənçilik və ya kiçik ticarət.

Bu sektorların bir çoxu əmək müfəttişləri, digər hüquq mühafizə orqanları və zərərçəkənlərə yardım assosasiyaları tərəfindən əlçatmazdır. Yüksək işçi axıcılığı, çox zaman işin mövsümi xarakter daşıması, mürəkkəb sub-podratçı müqavilə sistemi və tikinti sektoru misalında tez-tez dəyişilən iş sahəsi kimi faktorlar bu sektorlara nəzarəti çətinləşdirir. Evdə xidmət və fahişəlik kimi digər işlər ictimaiyyətin gözündən uzaq olur çünki əksər hallarda bu fəaliyyətlər şəxsi mülklərdə baş verir ki, oraya da əmək müfəttişləri daxil ola bilmirlər.

# Həssas işçi qrupları

Məcburi əmək müxtəlif sənaye sahələrində aşkar edilir və o həm qanuni həm də qeyri-formal müqavilə əsasında işləyən işçilərə təsir edir, bununla belə bəzi kateqoriyadan olan işçilər digərlərinə nisbətən daha zəif və həssasdırlar. İş yerlərinin təcrid olunması və şəxsi evin toxunulmazlığı prinsipi səbəbindən bəzi işçiləri tapmaq çətindir. Əmək müfəttişləri öz vəzifələri və səlahiyyətlərinə müvafiq olaraq aşağıdakı kateqoriyalardan olan işçilərə xüsusi diqqət yetirməlidirlər:

- Yazılı sənədlərə əsasən iş yerində diskriminasiya tendensiyalarından əziyyət çəkmiş qrupların bir hissəsi olan işçilər, məsələn, Latın Amerikasında yerli aborigenlər, Avropada qaraçılar və ya Cənubi Asiyada kastalar və tayfalar;

- Tez-tez diskriminasiya ilə üzləşən və əsasən istismar üçün əlverişli olan iqtisadi sektorlarda (məsələn, tekstil, geyim şeyləri və ya ev qulluğu)  işləyən qadınlar;

- Uşaqlar belə işçi kateqoriyası hesab edilmirlər. Həssas qrup kimi uşaqlar minimum əmək yaşından yuxarı yaşı olan gənc insanlardır və onlar qəbul edilə bilən işlərdə işləyə bilərlər. Uşaqlar BƏT 182 saylı Konvensiyasında göstərilən uşaq əməyinin ən pis formalarına cəlb oluna bilməzlər və 138 saylı Konvensiya ilə müəyyən edilmiş yaş həddindən aşağı yaşda ola bilməzlər. Əmək müfəttişləri uşaq işçilərin xüsusi vəziyyətlərini və eləcə də uşaq əməyinin ən pis formalarını anlamalıdırlar, çünki bunlar məcburi əmək və insan alveri ilə sıx bağlıdırlar;

- Miqrant işçilər, xüsusilə qeyri-leqal statusu olan işçilər. Bu cür işçilər adətən tikinti, kənd təsərüffatı, istehsalat və digər sektorlarda işləyirlər və çox zaman onlar digər işçilərlə müqayisədə daha pis iş şəraitində çalışırlar.

# MƏCBURİ ƏMƏYƏ QARŞI MİLLİ STRATEGİYALARDA ƏMƏK MÜFƏTTİŞLƏRİNİN ROLU

## Məcburi əməyə qarşı qlobal siyasətlərdən milli siyasətlərə

**G**etdikcə beynəlxalq ictimaiyyət daha çox qəbul edir ki, məcburi əmək keçmişin məsələsi deyildir və onun müasir manifestləri təcili tədbirlər görülməsini zəruri edir. Qanunun tətbiqi bu problemin həllinin əsas tərkib hissəsidir və qanunpozucuların cəzalandırılmaması məcburi əmək praktikalarının davam etməsinin ən vacib səbəblərindən biridir. Eyni zamanda getdikcə artan konsensus ondan ibarətdir ki, məcburi əməyə və insan alverinə qarşı hərəkat qarşılıqlı əlaqəsi olan yanaşma tələb edir və bu yanaşma qanunların ciddi tətbiqi və zərərçəkənlərə yardım tədbirlərini ehtiva etməlidir. Buna görə də məcburi əməyə qarşı siyasət bu üç ünsürdən ibarət olmalıdır: istintaq, qabaqlama və qoruma. Daha vacib olan amil isə odur ki, bu siyasət problemin ətraflı təhlili və müvafiq uğur göstəriciləri və lazımi dövlət vəsaitlərinin cəlb olunması da daxil olmaqla, onun aradan qaldırılmasına dair aydın bir baxışın əsasında yaradılmalıdır.

Siyasətin formalaşmasına bu cür bir inteqrə olunmuş yanaşma və onun icrası ümumilikdə milli əməyin idarəedilməsi sistemində əks olunmalıdır. BƏT-in 150 saylı 1978-ci il Əməyin İdarəediməsinə dair Konvensiyası bu cür milli əməyin idarəedilməsi sistemi, onun rolu, funksiyaları və təşkilinə dair təkliflər verir. Bu normativ çərçivə əsasında BƏT məcburi əmək qurbanlarının ən çox rast gəlindiyi qeyri-formal iqtisadiyyatda işləyən işçiləri müəyyən etmək üçün əməyin idarəedilməsi strategiyasını işləyib hazırlamışdır. Ən vacibi budur ki, əməyin idarəedilməsi sisteminin əsas funksiyalarından biri sosial tərəfdaşlarla məsləhətləşmələr əsasında əmək müfəttişlərinin icra etməli olduqları qanun layihələri hazırlamaqdır. Qanun və siyasət arasında ahəngliyi təmin etmək məqsədilə məcburi əmək və insan alveri ilə bağlı olan digər nazirliklərlə əməkdaşlığı təbliğ etmək vacibdir.

2007-ci ildə BƏT dünyanın müxtəlif ölkələrinin təqdim etdiyi 28 Məcburi Əmək və İnsan Alverinə qarşı Milli Fəaliyyət Planlarını (MFP) qiymətləndirmişdir. Əsas tapıntılar ondan ibarətdir ki, əksər MFP-ın aydın strategiyası, yetərli resursları və aydın indikatorları yoxdur. Insan alverinə qarşı MFP əsasən hüquq mühafizə yanaşmasını ehtiva edir və burada əməyin idarəolunması və əmək müfəttişlərinə məhdud rol verilmişdir; halbuki, bu tendensiyalar yavaş-yavaş dəyişməkdədir, çünki getdikcə başa düşülür ki, təkcə, cinayət qanunvericiliyini tətbiq etməklə bu problemi həll etmək olmaz. Sadəcə bir neçə MFP lazımi qədər dövlət vəsaiti hesabına maliyyələşmişdir və uğurlu icrası üçün yetərli yoxlama mexanizmlərinə malikdir. Bir çox ölkələrdə bu məsələ beynəlxalq təşkilatlar və yaxud ikitərəfli donor təşkilatlar tərəfindən gündəmdə saxlanılır.

**Aşağıdakı hadisələr qlobal və regional səviyyədə məcburi əmək və insan alverinə qarşı mübarizədə əldə olunmuş əsas uğurlar kimi qəbul oluna bilər:**

- 1998-ci ildə Beynəlxalq Əmək Konfransı iş yerində əsas prinsiplər və azadlıqlara dair Deklarasiyanı və onun davamını qəbul etdi. Bu prosess nəticəsində digər əmək standardları ilə birgə məcburi əməyin ləğvi BƏT-in və onu formalaşdıran üzvlərin əsas prioritetinə çevrildi. Nəticədə bu məsələ BMT-in Qlobal Ümumiləşdirilmiş Prinsipləri, ikitərəfli ticarət müqavilələri və ayrı-ayrı şirkət və sənaye təşkilatlarının korporativ sosial məsuliyyət (KSM) siyasətlərinin bir hissəsinə çevrildi. 2005-ci ildə BƏT-in İdarə Orqanı Məcburi Əməyə qarşı dörd illik Fəaliyyət Planını qəbul etdi.

- 2000-ci ildə BMT-in Narkotiklər və Cinayət Agentliyinə (UNODC) üzv ölkələr Transmilli Cinayətə qarşı Konvensiyanı və Palermo Protokolu da daxil olmaqla onun fakultativ protokolunu qəbul etdilər. O zamandan etibarən insan alverinə qarşı mübarizə beynəlxalq diqqəti daha çox özünə cəlb etdi. Hələ də bir çox yanaşmaların cinayət qanunvericiliyinin tətbiqinə (xüsusilə, fahişəlik məqsədilə edilən insan alverinə qarşı) üstünlük verməsinə baxmayaraq, əmək bazarı məsələlərini özündə əks etdirən insan hüquqlarına əsaslanan yanaşma da getdikcə artan diqqət görməkdədir.

- 2006-cı ildə Qərbi Afrika Ölkələrinin İqtisadi Birliyi (ECOWAS) və Mərkəzi Afrika Ölkələrinin İqtisadi Birliyi (ECCAS) "İnsanların, xüsusilə Qadınlar və Uşaqların Alverinə dair Abuja Müqaviləsini" qəbul etdi. Bu ECOWAS-ın 2001-ci il tarixli İnsanların Alverinə qarşı İlkin Fəaliyyət Planının davamı idi.

- 2004-cü ildə Cənub-Şərqi Asiya Ölkələrinin Assosasiyasına (ASEAN) Üzv Ölkələr insanların, xüsusilə qadınlar və uşaqların alverinə qarşı Deklarasiya qəbul etdilər. Onlar insanların alverinin qarşısının alınması və ona qarşı mübarizə, eləcə də zərərçəkənlərin hüquqlarının qorunması üçün geniş regional yanaşma və fəaliyyətə ciddi ehtiyac olduğunu qeyd edirlər.

- 2005-ci ildə Amerikalıların dördüncü Sammiti Fəaliyyət Planını qəbul etdi və "müvafiq ölçüləri və siyasətləri gücləndirməklə məcburi əməyi 2010-cu ilədək aradan qaldırmaq və bu hədəfə çatmaq üçün lazımi işlər görməyən ölkələrə yardım etmək" məqsədi qoydu. O eyni zamanda milli fəaliyyət planlarını yaratmaq üçün üzvləri həvəsləndirdi.

- Avropada insan alverinə qarşı fəaliyyət Avropa Birliyi, Avropa Şurası və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) birgə səyi ilə aparılmışdır. 2003-cü ildə ATƏT özünün İnsan Alverinə qarşı Fəaliyyət Planını qəbul etdi. 2005-ci ildə Avropa Birliyinin Şurası insanların alverinə qarşı mübarizə və qarşısının alınmasında ən yaxşı təcrübələr, standardlar və prosedurlara dair planı (AB Fəaliyyət Planı) təsdiq etdi. 2008-ci ilin fevral ayında Avropa *Şurasının İnsanların Alverinə qarşı Fəaliyyətə dair Konvensiyası* on üzv Ölkənin onu ratifikasiya etməsi ilə qüvvəyə mindi.

**Avropada insan alverinə qarşı siyasətlərin uyğunlaşdırılması. Avropada məcburi əmək əsasən insan alverinin nəticəsində yaranır. İnsan alverinə dair Avropa yanaşması ilkin olaraq belə fərziyyə ilə səciyyələnirdi ki, insan alveri əsasən fahişəliklə bağlıdır və buna görə də qanunun tətbiqi lazımdır. Bu cür yanaşma Palermo Protokolunun qəbulu ilə tədricən dəyişdi. 2002-ci ildə AB-in Şurası insan alverinə qarşı mübarizəyə dair özünün Çərçivə Sənədini qəbul etdi və bununla da üzv Ölkələrin qarşısında öz müvafiq qanunlarını beynəlxalq standardlara uyğunlaşdırmaq tələbi qoydu. 2004-cü ildə AB-in Ədalət və Daxili İşlər Şurası insan alverinin qurbanı olmuş və yaxud qeyri-leqal miqrasiyaya səbəb olmuş əməlin subyekti olmuş və müvafiq səlahiyyətli orqanla əməkdaşlıq edən üçüncü ölkələrin vətəndaşlarına yaşama hüququnun verilməsinə dair Direktivi təsdiq etmişdir. Eyni zamanda ekspert qrupu AB Fəaliyyət Planı üçün təkliflər hazırladı. 2005-ci ildə Şura insan alverinə qarşı mübarizə və qarşısının alınmasında ən yaxşı təcrübələr, standardlar və prosedurlara dair planı təsdiq etdi. AB Fəaliyyət Planının 4-cü Fəsli işəgötürmə qaydalarına aid tələb faktorlarını diqqət mərkəzində saxlanılır. Fəaliyyət Planı həmçinin əməyin istismarı məqsədilə insan alverini də qeyd edərək, bunun "tərəfdaşlar arasında yeni növ ixtisaslaşma və əməkdaşlıq tələb etdiyini, məs., əmək şəraitini yoxlamağa məsul olan və qeyri-qanuni əməyə dair maliyyə araşdırmaları aparan agentliklər arasında" bildirir (paraqraf 4/iv).**

# Əmək müfəttişlərinin vəzifəsi və rolu

Əmək müfəttişlərinin ən vacib funksiyası milli əmək qanunvericiliyinə əməl edilməsini təmin etməkdir.[1] Məcburi əmək və insan alveri məsələsinə gəldikdə isə, əmək müfəttişləri çox vaxt aydın olmayan mandata malikdirlər. Birinci, ona görə ki, bir çox ölkələrdə məcburi əmək və insan alveri cinayət sayılır və əsasən polis tərəfindən araşdırılır. İkinci, əmək müfəttişliyi sistemi iqtisadiyyatın məcburi əmək praktikaları baş verən sahələrini əhatə etməyə bilər, məsələn kənd təsərrüfatı, ev işləri və fahişəlik biznesi. Həmçinin qanuni müddəalar və onların praktikada tətbiqi arasında müəyyən boşluqların olması da mümkündür. Əmək müfəttişlərinə məcburi əməyə qarşı mübarizə mandatı vermək əmək müfəttişliyi sistemini bütövlükdə gücləndirəcək ciddi siyasi iradə tələb edir, məsələn, onların sayı artırılmalı, onlara təlimlər verilməli və lazımi resurslarla təmin olunmalıdırlar. Əgər əmək müfəttişləri komputerlə və nəqliyyat vasitələri ilə təmin olunmasalar onlar öz vəzifələrini yerinə yetirməkdə çətinlik çəkəcəklər.

Bir neçə hal istisna olmaqla, məcburi əmək və insan alverinə qarşı mübarizəyə dair qanunlar və MFP-ı əmək müfəttişliyi xidmətinin iştirakı olmadan hazırlanmışdır və buna görə də əmək nəzarətinə xüsusi bir vəzifə verilməmişdir. Buna görə də əmək müfəttişlərinin mandatı həm milli qanunvericilikdə həm də inzibati qaydalarda ciddi əks olunmalıdır. Bəzi ölkələrdə insan alverinin cinayət məcəlləsində cinayət kimi təsbit olunması ilə yanaşı, məcburi əmək praktikaları əmək məcəlləsi vasitəsilə qadağan olunmuşdur. Cinayət məcəlləsində insan alverinə qarşı qaydalar tətbiq edən ölkələr bunu əmək qanunvericiliyi ilə uyğunlaşdırmalıdırlar, xüsusilə əgər insan alveri anlayışı əməyin istismarı məqsədli insan alveri məsələsini də əhatə edirsə.

[1] Əmək müfəttişlərinin vəzifə və funksiyalarına dair iki BƏT Konvensiyası birbaşa fikir bildirir: 81 saylı Əmək Nəzarəti Konvensiyası (1947) və 129 saylı Əmək Nəzarəti (Kənd təsərrüfatı) Konvensiyası (1969).

Bu cinayətin mürəkkəbliyini nəzərə alaraq demək olar ki, məsuliyyətin bir nazirliyə verilməsi çətinliklər törədir. Çox zaman məcburi əməklə Əmək Nazirliyi, insan alveri məsələsi ilə isə ya Daxili İşlər Nazirliyi ya da Xarici İşlər Nazirliyi məşğul olur. Bu baxımdan siyasətin koordinasiya edilməsi son dərəcə vacibdir. Əmək müfəttişləri Əmək Nazirliyinin işçiləri olduqlarından fəaliyyət göstərmək üçün həmin nazirliyin qaydalarına ehtiyac duyurlar. Halbuki, əmək müfəttişləri qanunvericilikdəki boşluqları doldurmaq üçün hökumətlə iş apara bilər və məcburi əmək və insan alveri məsələlərində ortaya çıxan dövlət siyasəti problemlərinin müzakirəsi zaman onların məsləhətlərindən istifadə oluna bilər. Əmək müfəttişləri bir neçə sahəvi funksiyalar həyata keçirirlər ki, bunlar da məcburi əməyin qarşısının alınması və aradan qaldırılması üçün yaxşı başlanğıc nöqtə sayıla bilər:

- Sənaye əlaqələri
- Ümumi əmək şəraiti
- İş yerində texniki təhlükəsizlik və sağlamlıq
- Qeyri-leqal işəgötürmə
- Sosial sığortanın bəzi aspektləri

Əmək müfəttişlərinin təbliğ və tətbiq etməli olduqları əmək standardları layiqli əməyin təmin olunması üçün açar rolunu oynayır. Amma çox zaman onlar məcburi əməyin həqiqi və yaxud potensial qurbanlarına tətbiq olunmur. Bundan əlavə çox zaman məcburi əmək qurbanları təşkilatlanmırlar və yaxud ümumi kollektiv müqavilə sistemində yer almırlar. Onlar sosial sığorta sistemindən kənarlaşdırılırlar və çox zaman daimi əmək müqaviləsi əsasında işləmirlər və çox təhlükəli və çox pis əmək şəraitində çalışırlar. Əmək müfəttişlərinin üç əsas **əməliyyat funksiyaları** da məcburi əmək və insan alverinə qarşı qlobal mübarizənin üç **prinsipinə** uyğun gəlir - **İ**stintaq, **Q**abaqlama və **Q**oruma:

- **Milli qanuna uyğun fəaliyyəti təmin etmə funksiyası**
  Bu əmək müfəttişlərinin ümumi funksiyalarıdır ki, inandırma və ciddi sanksiyaların tətbiqi vasitəsilə həyata keçirilir və bu vasitələr məhdudlaşdırıcı rola malikdirlər. Qanuna uyğun fəaliyyəti təmin etmək üçün əmək müfəttişləri müxtəlif iqtisadi sektorlarda müəssisələrin qanuna uyğunluq dərəcələrini müşahidə edir və müvafiq yazılı qeydiyyat aparırlar. Ona görə onlar məcburi əmək və insan alverinə dair məlumat topllanması işində vacib rol oynaya bilərlər. Əmək müfəttişlərinin fəaliyyətinə dair dövri hesabatlar vacib və müvafiq məlumat təmin edir.

- **Məsləhət və informasiya funksiyası**
  Əmək müfəttişləri sahə nəzarətləri zamanı ortaya çıxan problemlərin həll olunmasında öz bilik və təcrübələrindən istifadə edə bilər və ya işçilərin və işəgötürənlərin təşkilatları ilə əlaqa saxlaya bilərlər. Əmək müfəttişləri eyni zamanda məlumatlandırma kampaniyalarının yaradılmasında məsləhətlər verə bilər və onların icrasında ciddi rol oynaya bilərlər, məsələn, qeyri-qanuni işəgötürmə praktikasına qarşı kampaniyalarda. Bundan əlavə əmək müfəttişləri əmək standartlarını, xüsusilə onlara təsir edən ən əsas standartlar və milli qanunları təbliğ edirlər. Onlar hədəflərin yaradılması və ən yaxşı təcrübələrin yayılmasında vacib rol oynayırlar. Əmək müfəttişləri həmçinin təlimlər təşkil edə bilərlər, xüsusilə, həmkarlar ittifaqları, işəgötürənlər, QHT, əmək məhkəməsi və digər dövlət qurumları üçün.

- **Qoruma funksiyası**
  Əmək müfəttişləri eyni zamanda sahə nəzarəti zamanı işçilərlə birbaşa əlaqəyə girərək məlumat verməklə onları təlimatlandıra bilərlər. İşçiləri, işəgötürənləri və potensial məcburi əmək qurbanlarını onların hüquqları barədə məlumatlandırmaq ən dəyərli qabaqlama və qoruma strategiyasıdır.

Əmək müfəttişləri iş yerində rastlaşdıqları xüsusi bir vəziyyətdən asılı olaraq kifayət qədər geniş inzibati və digər vasitələrdən istifadə edə bilərlər. Bu faktor onları potensial məcburi əmək və insan alveri qurbanlarını cəlb edən çox zaman həssas hadisələrə effektiv cavab vermək üçün yaxşı “silahlandırır.” Misal üçün, onlar qanuna əməl etməyən müəssisəyə ilkin cinayət işi açılmadan yazılı xəbərdarlıq təqdim etməklə onlara öz əməllərini düzəltməyə imkan verə bilərlər. Onlar həmçinin proses zamanı işəgötürənləri cəlb etməklə, işçilərə kömək etməklə və yaxşı praktikalar haqqında danışmaqla məsləhətlərini təmin edə bilərlər.

Hazırda dünyada əmək müfəttişliyi sisteminin inteqrə olunması tendensiyası genişlənməkdədir. Bu baxımdan yeni qurumlar yaratmaq əvəzinə, məcburi əməyə qarşı mübarizə işini mövcud əmək müfəttişliyi funksiyalarına daxil etmək daha məqsədəuyğundur. Bu məsələ həmçinin 81 və 129 saylı Konvensiyalarda da əks olunmuşdur. Amma məcburi əmək və insan alverinin mürəkkəb xarakterini nəzərə alaraq, bəzi hallarda bu sahəyə nəzarəti təmin etmək və bacarıqları artırmaq üçün xüsusi əmək müfəttişliyi bölməsinin yaradılması məsləhət görülə bilər. Qanunların effektiv icrası üçün müvafiq qurumları, yerli idarələri və nəqliyyat idarələrini lazımi material və maliyyə resursları, keyfiyyətli insan resursları ilə təmin etmək vacib şərtdir.





## QURBANLARIN MÜƏYYƏN EDİLMƏSİ VƏ MƏCBURİ ƏMƏK HALLARININ İSTİNTAQI

# Qanunu tətbiq etmənin çətinlikləri

**M**əcburi əmək və insan alveri yüksək gəlir gətirən və ələ keçmə ehtimalı az olan cinayətlərdir. Zərərçəkənlər çox zaman uzun müddətə istismar olunurlar və bəzən satılır və yenidən satılırlar. BƏT hesablamışdır ki, bir il ərzində məcburi əməkdən götürülən gəlir 44 milyard ABŞ dollarına bərabərdir və bunun içində insan alverindən gələn gəlir 32 milyard ABŞ dollarıdır. Eyni zamanda, qurbanların təxmini sayı ilə müqayisədə cinayətkarların istintaqı çox aşağı səviyyədədir.

**Aşağıdakı cədvəldə dünya üzrə araşdırılmış və cəzalandırılmış insan alverinə dair cinayətlərin sayı verilmişdir:**

| İl | İstintaqlar | Cəzalar | Yeni və ya təkmilləşdirilmiş qanunları olan ölkələrin sayı |
|---|---|---|---|
| 2003 | 7,992 | 2,815 | 24 |
| 2004 | 6,885 | 3,025 | 39 |
| 2005 | 6,618 | 4,766 | 41 |
| 2006 | 5,808 | 3,160 | 21 |

Mənbə: İnsanların Alverinə dair Hesabat, ABŞ Dövlət Departamenti, 2007

Qanunların effektiv icrasına qarşı müxtəlif maneələr vardır. Bunlardan bəziləri məcburi əməyin öz xarakterindən, bəziləri siyasi və institusional faktorlardan irəli gəlir, məsələn, bəzi ölkələrdə və ərazilərdə əmək müfəttişliyinin məhdud funksiyasının olması (əmək müfəttişlərinin vəzifələri fəslinə bax). Məcburi əmək və insan alveri praktikaları ictimaiyyətin gözündən uzaq olduğu üçün onları müəyyən etmək çətindir. Hüquq mühafizə orqanları, eləcə də qurbanlara yardım təşkilatları üçün təcrid olunmuş (məsələn, şəxsi evlər, coğrafi baxımdan ucqar yerlər və tikinti sahəsi kimi tez-tez dəyişilən iş sahələri) yerlərdə işləyən mümkün zərərçəkənləri tapıb üzə çıxarmaq çətindir.

Bundan əlavə məcburi əmək adətən elə vəziyyətlərdə baş verir ki, potensial zərərçəkənlərin məhdud alternativləri var və onların çox zaman əmək müfəttişlərinin əvəzinə istismar edicilərlə əməkdaşlıq etməkdən başqa çarələri olmur. Onların çoxu bilir ki, qeyri-qanuni işlədiklərinə görə milli qanunları pozmuşlar. Başqaları diskriminasiya olunmuş qruplara məxsus olurlar və onlar dövlət qurumları ilə əlaqədən ümumiyyətlə çəkinirlər. Əslində, hüquq mühafizə orqanları istismar əleyhinə çıxmaq və səlahiyyətli orqanlarla əməkdaşlıq etmək üçün təlimatlandırılmış potensial zərərçəkənlərin dəstəyi ilə daha çox qanun pozucularını ədalətə cəlb edə bilərlər.

Ən əsası isə, heç yerdə əlaqəli qurumların arasında effektiv əməkdaşlıq və koordinasiya mexanizmlərinin olmaması məsuliyyətlərin fraqmentasiyasına gətirib çıxara bilər. Əmək müfəttişlərinin çox zaman polis və prokuratura kimi hüquq mühafizə orqanları ilə əlaqəsi yoxdur. Buna görə də, bir çox hallarda məcburi əmək cinayətləri əmək müfəttişləri tərəfindən müəyyən edilə bilər, amma, cinayət qanunları ilə davam etdirilmədiyi üçün cinayət tərkibi kimi sayılmaya bilər.

Nəhayət, məcburi əmək və insan alveri milli əmək bazarının ucqarlarında baş verən qanun pozuntularıdır. Bu pozuntular çox zaman əhalinin diskriminasiya edilmiş qruplarına təsir edir və bu qrupların müdafiəsi həm hökumət həm də cəmiyyət üçün az prioritet təşkil edir.

# Mümkün məcburi əmək vəziyyətlərinin indikatorları

Əmək müfəttişlərinin məcburi əmək və insan alverinə dair əməliyyat təlimatlarının vacib elementlərindən biri hər hansı bir vəziyyətin məcburi əmək olub olmadığını təyin etməyə kömək edəcək indikatorlar olmalıdır. Bu indikatorlar həmişə məcburi əməyin elementləri olmaya da bilər; amma onlar sonrakı araşdırmalar üçün işarələr kimi başa düşülməlidir. Ümumi qiymətləndirmə bu sualın üzərində qurulmalıdır: işçi işi qəbul edərkən sərbəst və məlumatlı seçim azadlığı ilə təmin olunmuşdurmu və o, bu əmək münasibətini tərk etməkdə azaddırmı?

Indikatolar:
- Əmək müfəttişləri, digər hüquq mühafizə orqanları zərərçəkənlərə yardım təşkilatlarını mümkün məcburi əmək vəziyyətlərini müəyyən etməkdə istiqamətləndirməlidir;
- Spesifik sektor və regionlarda baş vermə ehtimalı çox olan məcburi əmək hallarını nəzərə almaqla ölkəyə məxsus olmalıdır;
- Milli qanun və qaydalara uyğunlaşdırılmalıdır;
- Pis əmək şəraitini məcburi əməkdən ayırmaqda kömək etməlidir.

BƏT-in Standartdların Tətbiqi üzrə Ekspert Komitəsi bu məsələ ilə bağlı müxtəlif vaxtlarda öz təlimatını vermişdir.[2] BƏT tərəfindən irəli sürülən altı ümumi indikatorlar vardır. Bu ümumi indikatorların hər biri daha ətraflı suallarla əlaqələndirilməlidir.

Bəzi nümunələr aşağıda verilmişdir:
- **Cinsi zorakılıq da daxil olmaqla, fiziki zorakılıq**
- İşçidə hər hansı pis rəftarın izi varmı, misal üçün göyərtilər?
- İşçidə nigarançılıq əlamətləri varmı?
- İşçidə psixi çaşqınlıq və ya zorakılıq əlamətləri varmı?
- Rəhbərlər və ya işəgötürənlər zorakı davranış nümayiş etdirirlərmi?

- **Hərəkət etmə azadlığına məhdudiyyət**
- İşçi iş yerində bağlı qapı arxasında saxlanılırmı?
- İşçi iş yerində yatmağa məcbur edilirmi?
- İşçinin iş yerini tərk etməsinə mane olacaq gözlə görünən işarələr varmı, misal üçün naqil hasarlar və yaxud silahlı gözətçilər?
- İşçi iş yerini tərk etməkdən çəkinirmi?

[2] BƏT Standardların Tətbiqi üzrə Ekspert Komitəsinin müvafiq şərhləri üçün bax: BƏT; İnsan Alveri və Məcburi Əmək İstismarı: Qanunvericilik və Hüquq Mühafizəsi üçün Təlimat, Cenevrə, 2005

- **Təhlükələr**
- İşçi işəgötürənin dediyindən və ya təbliğ etdiyindən fərqli fikirlər söyləyirmi və onun dediyinə əməl edirmi?
- İşçilər onların özlərinə, iş yoldaşlarına və ya ailə üzvlərinə qarşı təhlükə olması barədə məlumat verirlərmi?
- İşçilərin reketlik və ya böhtanla üzləşdiklərinə dair işarə varmı (işəgötürənin bu işdə rolunun olub olmamasından asılı olmayaraq?
- İşçi nigaran davranış nümayiş etdirirmi?
- İşçilər əvəzi ödənilmədən normal iş saatından artıq işləməyə və yaxud icra etmək istəmədikləri işi görməyə məcbur edilirlərmi və onlar etiraz etdikləri zaman onlara hədə qorxu gəlinirmi?
- İşçi qeyri-qanuni vəziyyətdədirmi (məsələn, miqrant işçilər) və onu dövlət qurumlarına ələ verilməsi hədəsi mövcuddurmu?

- **Borc və saxlamanın başqa formaları**
- İşçi yüksək işəgötürmə və ya nəqliyyat xərcləri ödəməli olurmu? Əgər belədirsə, bu xərclər onun maaşından çıxılırmı?
- İşçi yaşamaq, yemək və əmək alətləri üçün birbaşa onun maaşından tutulan yüksək rüsumlar ödəməyə məcbur edilirmi?
- İşçiyə onu iş yerini tərk etməyə imkan verməyəcək qədər avans və ya kredit verilibmi?
- İş üçün icazələr işəgötürənlər üçün xüsusi işləməyi vadar edirmi? Əvvəllər işəgötürəndən hər hansı bir şikayət edilibmi?

- **Maaşların verilməməsi və ya maaşların ödənilməməsi**
- İşçinin müvafiq əmək müqaviləsi varmı? Əgər yoxdursa, maaşlar necə ödənilir?
- Maaşdan qeyri-qanuni formada tutmalar varmı?
- İşçi ümumiyyətlə maaş almışdırmi?
- Milli rəsmi tələblərlə müqayisədə maaşın məbləği nə qədərdir?
- İşçilərin qazancları onların özlərinə verilirmi?
- İşçilərin maaşların məbləği barədə aldadılıblarmı?
- Maaşlar mütamadi olaraq ödənilirmi?
- İşçiyə qeyri-nəğd formada maaş ödənilirmi?

- **Şəxsiyyəti müəyyən edən sənədlərin saxlanması**
- İşçilərin şəxsiyyəti müəyyən edən sənədləri özlərindədirmi? Əgər deyilsə, bu sənədlər işəgötürən yoxsa rəhbər işçidədirmi? Niyə?
- İşçi öz sənədlərini istədiyi vaxt sərbəst şəkildə götürə bilirmi?

**Əlavə 2-də bir neçə məcburi əmək halı təsvir edilmişdir. Bu halları bəziləri aydın şəkildə 29 saylı Konvensiyanın şərtlərinə uyğun gəlməyə bilər. Real həyatda hər bir hal fərqlidir buna görə fərqli təhlil olunmalıdır. Buna görə də hər bir halı diqqətlə öyrənmək və hər bir halın indikatorlarını müzakirə etmək məsləhət olunur.**

# İstintaq texnikaları

Digər hüquq mühafizə orqanlarından fərqli olaraq, əmək müfəttişlərinin istifadəsində geniş spektrli istintaq metodları vardır. Ən əhəmiyyətlisi isə odur ki, onların adətən gündüz və ya gecə istənilən vaxt istənilən iş yerinə əvvəlcədən xəbərdarlıq etmədən azad şəkildə daxil olmaq səlahiyyətləri vardır (81 saylı Konvensiya). Onlar azad şəkildə sorğu apara bilər, xüsusilə insanlarla təklikdə söhbət edə bilər, sənədləri yoxlaya və nümunələr götürə bilərlər. Onların həmçinin çatışmazlıqları aradan qaldırmaq üçün göstəriş vermək və yaxud xəbərdarlıq və ya məsləhət, ya da istintaqı başlatmaq haqqında təklif vermək səlahiyyətləri vardır. Bu istintaqlar sonunda cinayət istintaqına da çevrilə bilər.

Bundan əlavə müfəttişlər əmək qanunlarının pozulmasına dair şikayətləri bu şikayəti edən şəxsin anonimliyini qoruyaraq araşdıra bilərlər və bununla da zərərçəkənləri şikayət etməyə həvəsləndirə bilərlər. Nəhayət, bir hüquq mühafizə orqanı olaraq, əmək müfəttişləri taktika və inandırmanın gücündən istifadə edərək məlumat əldə edə bilər və yaxud qanuna əməl edilməsinə nail ola bilər. Sosial tərəfdaşlar olan həmkarlar ittifaqları və işçilərin nümayəndələri ilə əməkdaşlıq etmək pozuntuların müəyyən edilməsi  və aradan qaldırılmasında ciddi vasitədir.

Əmək müfəttişlərinin üzləşdiyi ən ciddi məsələ mümkün qurbanların məcburi əməyə cəlb edildiyi yerləri tapmaq və ora daxil ola bilməkdir. Bu xüsusilə qeyri-formal iqtisadiyyatda işəgötürmə və rəsmi iqtisadiyyatda qeyri-qanuni işəgötürmə hallarında özünü qabarıq göstərir. Bəzən çox praktiki əngəllər məcburi əmək hallarının ortalığa çıxarılması və araşdırılmasına mane ola bilir. Misal üçün, ucqar yerlərdə əmək müfəttişlərinin müvafiq nəqliyyat vasitəsilə təmin olunmaması onlar üçün məhdudiyyətlər yaradır. Bir çox ölkələrdə ancaq qeydiyyata alınmış böyük və orta sahibkarlıq subyektləri yoxlanılır. Amma bu yerlərdə məcburi əmək halları tez-tez baş vermir və hətta tamamilə belə hallara rast gəlinmir. Bəzən işəgötürənlər sub-podratçı şirkətlərin arxasında "gizlənirlər" və problem olduğu zaman əmək müfəttişləri həmin yerlərə daxil ola bilmirlər. Bəzi ölkələrdə araşdırma və yoxlamalara əngəl törədildiyi üçün cəza kəsilə bilər.

Nəhayət əmək müfəttişləri şəxsin məxfiliyi prinsipinə çox ciddi əməl etməlidirlər. Məsələn, kənd təsərrüfatında sahibinin yazılı icazəsi və ya səlahiyyətli orqanın qanuni icazəsi olmadan şəxsi evlərə girməməlidirlər. Bir çox insanlar, əksər vaxtlarda qadınlar şəxsi evlərdə qulluqçu kimi işlədilirlər və şəxsi mülkiyyətin toxnulmazlığı səbəbindən bu hallar yoxlamalardan kənarda qalır. Bu hallarda başqa metodlardan istifadə olunmalıdır, məsələn həmkarlar ittifaqları, yerli ictimai birliklər və QHT-lə əməkdaşlıq edilməlidir.



İndiyə kimi məcburi əmək qurbanlarının böyük əksəriyyəti ya polis reydləri, yardım təşkilatları ilə əməkdaşlıq və yaxud qurbanların özlərinin şikayət etməsi nəticəsində müəyyən edilmişdir. Potensial ciddi əmək qanun pozuntularını araşdırarkən, bəzən əmək müfəttişlərinin güc tətbiq etməkdən başqa çarələri qalmaya bilər, amma bu halda polisin yardımından yararlanmağı təmin etmək lazımdır. Ancaq əmək müfəttişləri prinsip olaraq ciddi qarşıdurma yaratmadan hərəkət etməlidirlər.

**Aşağıda verilmiş yoxlama metodları çox vacibdir:**

- **Müsahibə və birbaşa müşahidə**
  Əmək müfəttişləri təklikdə və yaxud şahidlərin iştirakı ilə işəgötürən, işçilər və yaxud yoxlamanın məqsədlərinə kömək edə biləcək iştənilən şəxsi sorğu sual etmək səlahiyyətinə malik olmalıdırlar. Əmək müfəttişləri ən etibarlı məlumatı əldə etmək üçün sorğunu məxfi aparmalarına dair qərar vermə prosesində müstəqil mühakimə yürüdə bilməlidirlər. Əksər məcburi əmək hallarında işçilər qorxudulurlar və onlar sərbəst danışmaqdan çəkinirlər. Bu hallarda vəziyyət haqqında səlahiyyətli orqanlara məlumat vermək üçün işçilərə qaynar xətt və yaxud məxfi məlumatın ötürülməsinin digər yollarını göstərmək olar. Əmək müfəttişləri onlar getdikdən sonra işəgötürənlərin işçilərə qarşı müəyyən cəzalar tətbiq edə biləcəklərini daim yadda saxlamalıdırlar. Yoxlamalar və sorğu zamanı əmək müfəttişləri birbaşa müşahidələr aparmaqla müəyyən bir vəziyyəti təhlil edə və ya verilmiş ifadələri yoxlaya bilərlər.

  - **Sənədlərin təsdiq edilməsi**
    Bir çox ölkələrin qanunvericiliyi əmək müfəttişlərinə iş yerində bunların qanunun tələblərinə cavab verməsini yoxlamaq məqsədilə istənilən qeydiyyat, kitab, sənəd və ya elektronik məlumatı əldə etmək, onun nüsxəsini çıxarmaq və ya ondan çıxariş əldə etmək şəlahiyyəti verir. Məcburi əmək hallarına gəldikdə isə, əmək müfəttişləri əmək müqavilələrinə və müqavilənin istismar edici müddəalarının olub-olmamasına diqqət etməlidirlər, məsələn, işçinin borcu ödəmək üçün işlədiyinə dair və yaxud onu iş yerini tərk etməsinə mane olan istənilən müddəa. Əgər müqavilə yoxdursa, işçilərlə müsahibə aldatma, yalan vədlər və işdən çıxarmaq kimi ədalətsiz hədə-qorxu hallarına diqqət etməlidir.

- **Xəbərdarlıqların divardan asılmasını icra etdirmək**
  Müfəttişlər qanuni tələblərdən irəli gələn məlumatların divardan asılmasını təmin etmək səlahiyyətinə malik olmalıdırlar. Bir çox ölkələrdə işəgötürənlər daxili qaydalar, iş rejimi və ümumi təhlükəsizlik qaydalarına dair məlumatları müvafiq yerlərdən asmağa məcbur edilirlər. Bu metod insan alverinin qarşısının alınması üçün xüsusilə vacibdir. Əmək müfəttişləri miqrant işçilərin çalışdığı müəssisələrdə bu cür məlumatların sadə yaxud xarici dildə asıldığına əmin olmalıdırlar. Bu cür məlumatlar eyni zamanda miqrant işçilər üçün müvafiq məlumatları da özündə əks etdirməlidir, məsələn immiqrasiya qaydaları. Bu qaydanı pozan işəgötürənlərə qarşı tədbirlər görülməlidir.

- **İstifadə olunan material və əşyaların yoxlanılması**
  Müfəttişlər iş yerində istifadə olunmuş nümunələr, materiallar və əşyaları təhlil etmək məqsədilə götürmək üçün təlimatlandırılmalıdırlar. Bu ölçülər işçilərin və bəzən də onların ailə üzvlərinin sağlamlığı və təhlükəsizliyi üçün gərəklidir. Məcburi əmək qurbanları tez-tez təhlükəli iş şəraitində çalışmalı olurlar və bu onların sağlamlığı üçün risk yarada bilər.

**Səyyar yoxlama bölümü, Braziliya**
**Braziliyada məcburi əməyə qarşı mübarizə tədbirlərindən biri Xüsusi Səyyari Yoxlama Bölümünün yaradılması olmuşdur (Qərar No. 550 MTb 14 iyun 1995); əmək müfəttişləri və federal polisdən ibarət uşan dəstə. Hər iki qrup könüllü prinsip əsasında, işlədikləri federal ştatda yaşamayan şəxslərdən ibarətdir; burada məqsəd onların şəxsi təhlükəsizliyini təmin etmək və onları yerli təzyiqlərdən uzaq tutmaqdır. Onların işi "fazendalarda" (kənd fermer mülkləri və ya rançoları) məcburi əmək iddialarını araşdırmaqdır. Bəzən əmək hakimləri də bu dəstəyə qoşulur ki, istintaq elə yerindəcə aparılsın.**

**Bölümün əməliyyatlarının davamlı qiymətləndirilməsi effektivliyi təmin etmək üçün iki faktoru ortalığa çıxarmışdır: mərkəzləşdirilmiş təşkilatlanma və planlaşdırmanın tam məxfiliyinin təmin edilməsi. Fəaliyyətlərin əks-mərkəzləşdirilməsi cəhdləri onunla nəticələnir ki, yoxlama haqqında məlumat məqsədli şəkildə torpaq sahiblərinə çatdırılır və bu da işçiləri gizlətməyə və ya vəziyyəti ört-basdır etməyə imkan verir.**

**Bu az büdcəli idarələr-arası dəstə məcburi əməyə qarşı mübarizədə özünü effektiv vasitə kimi təsdiq etmişdir. Səyyar yoxlama dəstələrinin araşdırıcı işi həm yerli həm də ştat səviyyəsində tətbiq edilmişdir. Mato Grosso do Sul ştatının Vila Rika bələdiyyəsində bələdiyyə idarəsi, bələdiyyə şurası, kənd təsərrüfatı istehsalçıları və işçi təşkilatlarının iştirakı ilə komissiya yaradılmışdır. Məcburi əməyə dair iddialar olduqda komissiya torpaq sahibləri və vasitəçilər arasında danışıqlar aparırdı. Məhz Səyyar Yoxlama Dəstəsinin çağırılması qorxusu və cərimələrin olacağı danışıqları sürətləndirmişdir. Səyyar Yoxlama Dəstəsi bu cür danışıqlar uğursuz olduqda çağırılırdı.**

Mənbə: BƏT: Trabalho Escravo no Brazil do Século XXI, Braziliya 2005

**Məlumat toplama və məlumat mənbələri:**

- Zərərçəkənlər və şahidlərin ifadələri
- Həmkarlar ittifaqlarından gələn məlumat
- QHT və icma əsaslı təşkilatlar, məsələn müşahidə komitələri və ya dini qruplar
- Vergi və gömrük orqanlarının məlumatları
- Sosial müdafiə orqanlarının məlumatları
- Digər dövlət orqanları tərəfindən toplanan məlumat bazalarından əldə edilmiş informasiya
- Media hesabatları və digər dövlət hesabatları
- Beynəlxalq təşkilatların topladıqları məlumatlar, məsələn İnterpol, Beynəlxalq Miqrasiya Təşkilatı
- Ətraf mühit orqanları və riskli fəaliyyətlərin peyk monitorinqi, məsələn, ağacların qırılması və yaxud mədənçilik
- Qaynar xətt və ya təsadüfi mənbələrdən əldə edilmiş məlumat
- İnternetin monitorinqi, məsələn şübhəli iş təklifləri

# İstintaq və cərimələr

Əmək müfəttişlərinin gücü onların əlində olan qanunları tətbiq etdirmə müxanizmlərinin təsiredici olmasından asılıdır. Məcburi əmək və insan alveri adətən əmək qanunların pozulması mühitində baş verən cinayətlərdir. Buna görə də bu cinayətlər həm əmək qanunvericiliyi həm də cinayət qanunvericiliyinə aiddir. BƏT-in 29 saylı Məcburi Əmək Konvensiyasına əsasən məcburi əmək cinayət kimi sayılmalıdır və ona aid cəzalar adekvat olmalı və ciddi tətbiq edilməlidir. Cəza həm maliyyə cərimələri həm də həbs cəzası qismində ola bilər. Əmək müfəttişlərinin cərimələri icra etdirməmə istəkləri olduğundan, məcburi əmək halları ümumən hüquqi və cinayət qanunvericiliyinin tətbiqini tələb edir. Əmək müfəttişləri ciddi və yaxud qəsdən qanunpozma ilə qeyri-iradi və ya kiçik pozuntular arasında fərqi sezmək üçün bilik və yaxşı mühakiməyə sahib olmalıdırlar. Misal üçün işçilərin şəxsiyyəti təsdiq edən sənədlərinin saxlanması bütün ölkələrdə qeyri-qanunidir və bu hal məcburi əməyin göstəricisi kimi qəbul edilə bilər. Amma bəzən işəgötürənlər şəxsiyyəti təsdiq edən sənədləri pis niyyətlə saxlamazlar amma bunu sübut etmək çətin olar. Ona görə də cinayət işini başlamazdan əvvəl əmək müfəttişləri işəgötürənin əsas niyyətini başa düşməyə cəhd etməlidirlər.

Əmək müfəttişləri cinayət sanksiyalarını tətbiqdən əvvəl müxtəlif inzibati vasitələrdən istifadə edə bilərlər. Ən çox istifadə olunan belə inzibati vasitələrdən biri cərimələrin tətbiqidir. Amma cərimələr effektiv çəkindirici vasitə olmalı və belə də qalmalıdır. Bəzi ölkələr cərimələrin məbləğinin müəyyən edilməsi üçün metodlar hazırlamışlar. Bunlar aşağıdakı kriteriyalar əsasında müəyyən edilir: pozuntunun neçə dəfə təkrar olunması, biznesin ümumi dövriyyəsi, pozuntunun təsir etdiyi işçilərin sayı, yaxud pozuntunun xarakteri və nəticələri. Daha ciddi inzibati sanksiya biznes fəaliyyəti üçün verilmiş lisenziyanın geri alınması və ya müəssisənin bağlanması ola bilər. Adətən məcburi əmək və insan alveri kimi cinayətlər cəza prosedurlarına gətirib çıxarır amma bəzən xüsusi hallarda məcburi əməyə çevrilə bilən əmək qanunvericiliyi pozuntularını da həll etmək vacibdir.

Bundan əlavə əmək müfəttişləri qabqlayıcı təsirə malik cəza vasitələrindən də istifadə edə bilərlər. Məsələn Braziliyada əmək müfəttişliyi katibliyi məhkəmələr tərəfindən məcburi əmək hallarına görə təqsirli bilinib cəza almış işəgötürənlərin adlarını nəşr etdirir. Bu “qara siyahı” digər qurumlara imkan verir ki, onlar bu siyahıda adları olan şəxslərin kredit, subsidiya və sosial yardımlar almasına mane olsunlar. Bu “qara siyahı” xüsusi həssaslıqla idarə olunmalıdır ki, sui-istifadə və korrupsiya halları baş verməsin.  Braziliya Hökuməti eyni zamanda federal hüquq mühafizə və məhkəmə orqanlarına səlahiyyət vermişdir ki, onlar birgə işləyərək işəgötürənlərə elə hadisə yerindəcə cəzalar tətbiq etməklə cəzasızlığa son qoysunlar.



Əvvəllər işəgötürənlər korrupsiya və qeyri-adekvat məhkəmə qərarları nəticəsində istintaqdan qaça bilirdilər. Filippində oxşar cəhd edilərkən, qanun pozucularına qarşı stiqma yaratmaq və ictimaiyyəti xəbərdar etmək üçün hökumət cinayətkar işəgötürmə agentliklərinin adlarını internet səhifəsində yerləşdirir.

**Aşağıda mümkün inzibati, mülki və cinayət sanksiyalarının siyahısı verilib:**

- Dəyişiklikləri təqdim edəcək qadağalar
- Cərimələrin ödənilməsi
- Dəyişikliklərin icra olunmasına qədər firmanın müvəqqəti bağlanması
- İşçinin işə qaytarılması
- Lisenziyanın müvəqqəti və ya tamamən geri alınması (məsələn, özəl işəgötürmə agentliyi)
- Zərərçəkənə dəymiş maddi zərərin ödənilməsi
- Mənəvi zərərin ödənilməsi
- Əmlakın müsadirə edilməsi
- Müqavilələr imzalamaq və yaxud fond yaratmaq hüquqlarının geri alınması
- Ev həbsi və ya azadlıqdan məhrum etmə

## Zərərçəkənlərlə necə davranmalı

Məcburi əmək və insan alverinə qarşı cinayət işlərinin bir çoxunda toplanmış məlumatların yetərli olmasına baxmayaraq, işin məhkəməyə verilməsi üçün zərərçəkənlərin ifadəsinə ehtiyac yaranacaqdır. Məcburi əmək qurbanları (faktiki və ya potensial) ilə bağlı məsələlərdə həmişə insan hüquqları cinayət hüququ məsələsini üstələməlidir. BMT-in İnsan Hüquqları üzrə Ali Komissarı *İnsan Hüquqları və İnsan Alverinə dair Təklifedici Prinsiplər və Təlimatları* nəşr etdirmişdir və burada qeyd edilən məsələ ilə bağlı gərəkli təlimat vardır. Bir sıra ölkələrdə hüquq mühafizə orqanları və zərərçəkənlərə yardım təşkilatları arasında Anlaşma Memorandumu imzalanmışdır və bununla onlar arasında həm əməkdaşlığa, həm də zərərçəkənlərin maraqlarının qorunmasına imkan yaranmışdır. Əmək müfəttişlərinin bu cür əməkdaşlıq müqavilələrini nəzərə alması məsləhətdir və cinayətin müəyyən edilib istintaqa cəlb olunmasında zərərçəkəni diqqət mərkəzinə alan yanaşmadan istifadəni təmin etmək məqsədilə həmkarlar ittifaqları və digər təşkilatlar ilə öz müqavilələrini hazırlamaları gərəkdir.

**Zərərçəkənlərin müəyyən edilməsi və yardım göstərilməsində aşağıdakı prinsiplərdən istifadə olunmalıdır:**

- Zərərçəkənlərin onlara verilmiş bütün seçim variantları haqqında məlumatı olmalıdır, xüsusilə də məhkəmədə ifadə vermək seçimi. Onlar bütün prosedurlar və mümkün risklər haqqında bilməlidirlər.

- Əgər zərərçəkən məcburi əmək icra etdiyi zaman cinayət törətmişsə o, cinayət məsuliyyətinə cəlb edilməməlidir (cəza verməmə prinsipi)

- Zərərçəkənlərin şəxsi məlumatlarına hörmət edilməlidir və onlar tərəfindən verilmiş məlumatın məxfiliyi təmin edilməlidir.

- Zərərçəkənlər və onların ailələrinin təhlükəsizliyi təmin edilməlidir. İnsan alverinə məruz qalmış qurbanları evlərinə göndərməzdən əvvəl mümkün risklər diqqətlə araşdırılmalıdır.

- Zərərçəkənlərə onların ehtiyacına uyğun yardım edilməlidir, məsələn tibbi, psixoloji və hüquqi yardım.

- Zərərçəkənlərə məlumatlı qərar verə bilmələri üçün imkan verilməlidir və onlara özləri ilə bağlı qərar vermə prosesində iştirak etmək imkanı verilməlidir.

- Zərərçəkənlərə cinayət prosesinə aidiyyəti olmadan kompensasiya barədə məlumat verilməlidir.

- Uşaqların hüquqları və ehtiyaclarını nəzərə almaq üçün xüsusi prosedurlar yaradılmalıdır. Uşaqlara ünvanlanmış bütün yardım və qoruma tədbirləri ancaq uşağın marağını təmin etməlidir.

Əmək müfəttişləri bilməlidirlər ki, mümkün qurbanlar və qanunpozucuları arasındakı münasibətlər kompleks və bəzən də təzadlı ola bilər. Qurbanlar ilk növbədə işçilər kimi nəzərə alınmalıdırlar, hansı ki onlar sərbəst qərar vermə səlahiyyətlərini itirmiş ola bilərlər, amma bununla belə onlar müəyyən iradəyə malik şəxslərdirlər. Hətta hüquqi tədbirlərin hazırlanması üçün qurbanlara diqqət edilməsinə baxmayaraq, əksər məcburi əməyə məruz qalmış şəxslər özlərini belə rolda görmürlər. Məsələn, miqrant işçilər öz risklərini məntiqi yolla hesablayırlar: öz səyahət və işlədikləri zamanı üzləşdikləri çətinliklərə dözən şəxslər arasında “köləlikdən sahibkarlığa” kimi düşüncə əsas yer tutur. Amma onların bir çoxu axırda öz yaşayış və iş şəraitlərinin yaxşılaşdırmağa nail olurlar. Məcburi əmək qurbanlarının digər bir mümkün qrupu isə nəsillərlə ciddi diskriminasiya ilə üzləşmiş insanlardır. Buna görə də istismara qarşı mübarizə aparmaq onların imkan və ya təsəvvürlərindən çox uzaqdır.



Bəzən zərərçəkənləri başa düşmək olmur və onlar öz işəgötürənlərinin yanlışlıqlarını ört-basdır etməyə çalışırlar, çünki onlar öz cari vəziyyətlərinə alternative görmürlər. Həmçinin, onlar onları əvvəllər onları istismar etmiş cinayətkar şəbəkənin üzvünə də çevrilə bilərlər. Bu baxımdan müfəttişlər "əsl" zərərçəkən axtararkən ehtiyatlı olmalıdırlar. Ona görə də işəgötürənləri məsuliyyətə cəlb etmək üçün istifadə oluna biləcək obyektiv göstəriciləri axtarmaq daha vacibdir. Eyni zamanda mümkün zərərçəkənlərin çətinliklərini realistik qiymətləndirmək və müdaxilə etməyə çox da həvəs göstərməmək vacibdir; hətta baxmayaraq ki, adətən müfəttişlər bütün qeyri-qanuni hallar barədə müvafiq orqanları məlumatlandırmağa məsuldurlar.

Digər tərəfdən BƏT-in 81 və 129 saylı Konvensiyaları qeyri-qanuni işçi statusu olduğuna görə işçinin əmək müfəttişləri tərəfindən qorunmaması barədə heç bir müddəa irəli sürmür. Buna görə də əmək müfəttişləri əmək münasibətləri nəticəsində (məsələn, maaşların ödənilməsi) faktiki və ya potensial zərərçəkənlərin hüquqlarının qorunmasında mühüm rol oynayır.

Zərərçəkənlər üçün Milli Göndəriş Mexanizminin (MGM) yaradıldığı ölkələrdə əmək müfəttişləri və digər hüquq mühafizə orqanları üçün zərərçəkənlərin xüsusi ehtiyaclarını qarşılamaq daha asandır. MGM elə bir əməkdaşlır platformasıdır ki, burada dövlət qurumları məcburi əmək və insan alveri qurbanlarının hüquqlarının qorunması və təmin edilməsində öz məsuliyyətlərini icra edir, öz səylərini vətəndaş cəmiyyəti, işçi və işəgötürən təşkilatları ilə birgə strateji əməkdaşlıqda davam etdirirlər. MGM-in strukturu ölkələr üzrə fərqlənir: amma, MGM elə qurulmalıdır ki, hökumət, həmkarlar ittifaqları və məcburi əmək qurbanları ilə işləyən qeyri-hökumət qrupları arasında əməkdaşlığı sistemləşdirsin. MGM-ə adətən milli koordinator, dəyirmi masalar və milli və yerli səviyyələrdə işçi qruplar daxil olur.[3] MGM insan alveri kontekstində yaradılmış bir sistemdir amma o məcburi əmək kontekstində də istifadə oluna bilər. Bu cür MGM nəzərə almalıdır ki, məcburi əmək və insan alverinə məruz qalmış şəxslər HİV/QİÇS və ya digər xəstəliklərə tutula bilərlər və buna görə də onlara xüsusi münasibət göstərilməlidir. Bütün hallarda, əmək müffətişləri elə bir məlumat bankı yaratmalıdırlar ki, burada sertifikatlı xidmət göstərən qurumlar öz yerini alsın və zərərçəkənlərə yardım göstərmək üçün polis və digər qurumlarla əməkdaşlıq təmin edilsin.

## Əmək müfəttişlərinin etik davranışı

Məcburi əmək və insan alveri çox zaman kriminal şəbəkələri əhatə etdiyindən digər dövlət qurumları kimi əmək müfəttişləri də rüşvət və digər qeyri-etik praktikalarla üzləşə bilərlər. Korrupsiya həssas bir məsələdir, amma bu məsələ məcburi əməyin aradan qaldırılmasına dair milli strategiya çərçivəsində, və eləcə də yaxşı dövlət idarəetmə kimi bir ümümi hədəfin daxilində həll olunmalıdır. Əmək müfəttişlərinin korrupsiya və ya qeyri-etik davranışları mümkün məcburi əmək situasiyasında xüsusilə kritikdir, ona görə ki, bu hal zərərçəkənlərin həyatını təhlükəyə ata bilər.

Elə hallara rast gəlinir ki, məcburi əmək və insan alveri qurbanları istismar edici işəgötürənin əlindən qaçıb qurtara bilmişdir amma onlar hüquq mühafizə orqanları işçiləri tərəfindən tutulub geri qaytarılmışdır. Bu qəbul edilməzdir. BƏT tövsiyyələr və nümunəvi Etik Davranış Kodeksi hazırlamışdır və bu sənədlər istənilən müfəttişliyin korrupsiyaya qarşı mübarizəsi və xüsusilə həssas vəziyyətdə olan işçilərin qorunması səylərinin əsasını təşkil etməlidir.[4]

[3] ATƏT/İHDTO: Milli Göndəriş Mexanizmləri: İnsan Alverinə məruz qalmış Şəxslərin Hüquqlarının Qorunması Səylərinə Qoşularkən. Praktiki Təlimat Kitabı, Varşava, 2004

[4] BƏT: Əmək Müfəttişləri üçün Vəsait: Nümunəvi Qanun tətbiq etmə Siyasəti, Təlim və Əməliyyat Təlimatı Kitabı, Etik Davranış Kodeksi, Annie Rays tərəfindən redaktə olunub, Budapeşt, 2006

# Digər tərəfdaşlarla əməkdaşlıq

Məcburi əmək və insan alveri çox mürəkkəb cinayətlərdir və buna görə də çoxtərəfli yanaşma tələb edir. Mütəşəkkil cinayətkar şəbəkələr bu işə cəlb olunduğundan digər ölkələrlə əməkdaşlıq çox zaman mühüm faktora çevrilir. Bundan əlavə potensial zərərçəkənlər xüsusiləşdirilmiş yardıma ehtiyac duyurlar ki, bunu da əmək müfəttişləri təmin edə bilmirlər. Əməkdaşlığın məqsədi ölkələrdən asılı olaraq dəyişə bilər, məsələn, məlumatların ötürülməsi (hesabatlar və hər bir orqanın daxilində toplanmış məlumatlar), agentliklər-arası komissiyaların işində iştirak, birgə istintaq və qurbanlara yardım proqramlarına birgə dəstək və yaxud məlumatlılığın artırılması kampaniyaları. İşçi və işəgötürən təşkilatları ilə əməkdaşlıq son dərəcə vacibdir. Bu sosial dialoq mexanizminin tərkib hissəsinə çevrilməlidir və lazım olduqda əmək müfəttişləri və sosial partnyorlar informasiya bölgüsü edərək buraxılmış səhvləri düzəldə bilərlər.

Qısası, əməkdaşlıq effektiv istintaq, qurbanların qorunması, məlumatların idarə edilməsi və məhdud resurslar və rəqabət aparan siyasət məsələləri mühitində ümumi siyasətin icrasına şərait yaradır. Amma əməkdaşlıq üçün çoxlu maneələr var, məsələn, dillə bağlı çətinliklər, məlumatlılığın olmaması, bir-biri ilə rəqabət aparan fərqli mandatlar və resursların çatışmazlığı.

### Hökumət tərəfdaşları:

- **Polis**

  Məcburi əmək və insan alveri çox zaman mütəşəkkil cinayətkarlıqla bağlı olduğu üçün polisin yardımı vacib ola bilər. Əmək müfəttişləri çətinliklə üzləşdikləri və ya onlar təhlükə ilə rastlaşdıqları zaman onların polisin yardımını istəməsi fərqli təsirə malik ola bilər. Xüsusilə, bu müfəttişlərin öz fiziki sağlamlıqlarını təmin edər.

- **Məhkəmə**
  Əmək müfəttişlərinin istifadə etdikləri sanksiyaların effektivliyi bütövlükdə onların bu halları məhkəmə orqanlarına verdikdən sonra məhkəmənin onları necə icraata götürməsindən asılıdır. Əmək müfəttişləri və məhkəmələr (məsələn, ümumi və yaxud əmək məhkəmələri) arasında sıx əməkdaşlıq və koordinasiya sanksiyaların effektivliyinə təsir edə bilər, missal üçün Braziliyanın nümunəsində sanksiyalar elə hadisə yerində təmin edilə bilər. Belə əməkdaşlıq eyni zamanda məcburi əməyə qarşı mübarizə işində əmək müfəttişlərinin rolu barədə məhkəmə orqanları arasında məlumatlığı artıra bilər.

- **Miqrasiya orqanları**
  Miqrasiya orqanları ilə sıx əməkdaşlıq insan alveri qurbanlarının deportasiya olunmaqdan qorunması işində mühüm rol oynaya bilər, belə ki, onların əksəriyyəti qeyri-qanuni miqrant işçilərdir. Onlar həmçinin insan alveri qurbanları üçün müvəqqəti yaşayış icazəsinin alınmasına da cəlb oluna bilərlər. Amma bu cür əməkdaşlıq elə qurulmalıdır ki, o əmək müfəttişlərinin əsas məqsədlərinə, yəni işçilərin hüquqlarının və maraqlarının qorunması (onların hüquqi statusundan asılı olmadan) və eləcə də əmək şəraitinin yaxşılaşdırılması işinə xələl gətirməsin. Əmək müfəttişləri işəgötürənlərin cəzalandırılmasına diqqət etdikləri kimi, miqrasiya orqanları da qeyri-qanuni işçilərin müəyyən edilib tutulmasında ciddi cəhd edə bilərlər, baxmayaraq ki, onlar ciddi istismara məruz qala bilərlər. Bu baxımdan miqrasiya orqanları ilə əmək müfəttişləri arasında sıx əməkdaşlıq müxtəlif qanunların tətbiq olunması arasında gərginliyin qarşısının alınması və işçilərin cəza almaqdan qorunması üçün vacibdir.

- **Sərhəd xidməti, gömrük və vergi orqanları**
  Məcburi əmək və insan alveri çox zaman digər cinayətkar fəaliyyətlərlə bağı olur, məsələn, qaçaqmalçılıq, vergi silinməsi və ya çirkli pulların yuyulması. Sərhəd xidməti ilə əməkdaşlıq insan alveri və yaxud qaçaqmalçılıqla bağlı yararlı məlumata malik ola bilərlər, digər tərəfdən vergi və gömrük orqanları ilə əməkdaşlıq insan alverçilərinin və ya cinayətkar işəgötürənlərin əmlaklarının dondurulmasında əsas rol oynayar. Bəzən

vergi silinməsi ilə bağlı istintaq məcburi əmək hallarının ortalığa çıxarılmasına səbəb ola bilər və yaxud əksinə, amma bunun üçün müvafiq orqanlar məsələ barədə ətraflı təlimatlandırılmalıdırlar.

- **Sosial müdafiə və sosial sığorta qurumları**
  Məcburi əmək və insan alveri qurbanlarının əksəriyyəti sosial müdafiə və ya sosial sığorta mexanizmləri ilə əhatə olunmurlar. Sosial ödəmələrdə saxtakarlıq və digər müvafiq məlumatlar əmək müfəttişlərinə sistematik olaraq ötürülməlidir ki, yüksək riskli müəssisə və fəaliyyət növləri müəyyən edilə bilsin. Eyni zamanda, əmək müfəttişləri sağlamlıq və təhlükəsiz əmək şəraiti işçiləri risk altına alan iş yerləri barədə sosial müdafiə və sosial sığorta qurumlarına onların müracitələri əsasında məlumat verə bilərlər.

## Sosial tərəfdaşlar:

- **İşçi təşkilatları (Həmkarlar)**
  Həmkarlar ittifaqları potensial zərərçəkənlərin müəyyən edilməsi və onların qorxaraq vermədikləri şikayətləri qaldırmaqda mühüm rol oynaya bilərlər. Həmçinin həmkarlar ittifaqları işçilər, eləcə də miqrant işçilər üçün hüquqi yardım təmin edə bilərlər və bununla da vəziyyətin daha da pisləşməsinin qarşısını ala bilərlər. 2007-ci ildə Beynəlxalq Həmkarlar İttifaqları Konqresi (BHİK) məcburi əməyə qarşı Fəaliyyət Planı qəbul etmişdir. O məcburi əmək hallarını işıqlandıran bülleten nəşr etdirir və tədbir görməyə dəvət edir. Dünyanın bir çox yerlərində həmkarlar ittifaqları artıq məcburi əməyin qarşısının alınması və qurbanların qorunması işinə fəal qoşulmuşlar (aşağıda çərçivəyə bax).

- **İşəgötürən təşkilatları (Sahibkarlar)**
  İşəgötürənlər əmək müfəttişləri ilə əməkdaşlıq edə bilərlər və hətta bir çox hallarda edirlər, məsələn, qanunu pozanlar haqda müfəttişləri məlumatlandırır, məlumatlılığı artırma və qabaqlayıcı kampaniyalarda iştirak edirlər. Bu təşkilatlar qeyri-qanuni işəgötürmənin və istismar edici fəaliyyətin qarşısının alınması işində öz üzvlərinə məsləhət vermək və etik biznes standardlarını təbliğ etməklə vacib rol oynayırlar.

## Digər tərəfdaş təşkilatlar:

- **QHT və zərərçəkənlərə yardım edən digər təşkilatlar**
  QHT-lər və digər vətəndaş cəmiyyəti təşkilatları həmkarlar ittifaqları tərəfindən əhatə olunmayan və əmək müfəttişləri və polis tərəfindən çətin müəyyən edilə bilən iqtisadi sektorları üçün çox mühümdür. Misal olaraq ev qulluqçuluğu, seks və əyləncə işi və digər sektorları göstərmək olar ki, bunlar əmək müfəttişlərinin mandatından kənardır. Bir çox ölkələrdə QHT-lər qaynar xətt yaradaraq zərərçəkənlərin ilk yardım almasına şərait yaratmışlar. Qaynar xətt çox zaman məcburi əmək və insan alverinin baş verməsinin qarşısını ala bilər, belə ki risk qarşısında olan şəxslər özlərini istismardan qorumaq üçün məlumat ala bilərlər. QHT-lərlə əməkdaşlıq çox vacibdir belə ki, hüquq mühafizə orqanları zərərçəkənləri məcburi əmək vəziyyətindən xilas etməlidirlər və onlar elə tərəfdaşlar tapmalıdırlar ki, zərərçəkənləri ora göndərə bilsinlər və orada onlara düzgün yardım edilsin – buraya tibbi, hüquqi və ya psixoloji yardım daxil ola bilər.

- **Beynəlxalq təşkilatlar**
  Beynəlxalq təşkilatlar son illərdə məcburi əmək və insan alverinə qarşı daha effektiv mübarizə aparmağa çağırmış və qlobal səviyyədə vəziyyəti yaxşılaşdırmaq üçün çoxlu proqramlar başlamışlar. Adətən əmək müfəttişləri bu milli və ya regional, xaricdən maliyyələşən proqramlara cəlb olunmurlar. Bununla belə onlar əməkdaşlıq, bacarıqların inkişaf etdirilməsi və yaxşı təcrübələrin bölüşdürülməsi üçün yaxşı müstəvi yarada bilirlər.

**Əmək müfəttişləri ilə birgə həmkarlar ittifaqının fəaliyyəti**

**2002-ci ildə Bütün Çin Qadınlar Federasiyası (BÇQF) Çin Sosial Elmlər Nazirliyi ilə birgə BÇQF-yə üzv olan müəssisələrdə qadınların əmək şəraitinin yoxlanması məqsədilə hüquqi yoxlama sistemi yaratdı. Həmkarlar ittifaqı nəzarətçilərinin əsas işi gender-əsaslı diskriminasiya, qadın işçilərlə bağlı əmək qanunvericiliyinə əməl olunması, maaşların ödənilməsində səhvlər, qadın işçilərin istismarı, qeyri-qanuni uşaq əməyi və müqaviləsiz işəgötürmə vəziyyətlərini araşdırmaqdır. Paralel olaraq hüquqi qaydaları daha da gücləndirmək məqsədilə qadınların hüquqlarını diqqət mərkəzində saxlayan bir neçə seminarlar təşkil edildi.**

Mənbə: BƏT: Çin Layihəsi - Qızlar və gənc qadınların alverinin qarşısının alınması, 2004-2008

## Əməkdaşlığın növləri

Birgə əməkdaşlığın müxtəlif formaları vardır. Amma vacib olan bir məqam var ki, əməkdaşlıq fərdlər əsasında qurulmamalıdır, çünki o şəxslər iş yerlərini tərk etdikdə əməkdaşlıq dayana bilər. Struktura malik əməkdaşlıq bir neçə vacib sual yaradır. Birinci, əmək müfəttişlərinin işinin harada başa çataraq, polis və digər orqanların işinin harada başlandığını bilmək vacibdir. İkinci, əmək müfəttişlərinə yeni olan əməkdaşlıq, məsələn icma əsaslı yardım təşkilatları ilə əməkdaşlıq yaradılmalı və uzun müddət ərzində dəstəklənməlidir ki, qurumlar arasında inam yaransın.

- **Əməkdaşlıq müqavilələri**
  Əməkdaşlıq müqavilələri və yaxud anlaşma sazişi digər milli və beynəlxalq tərəfdaşlarla imzalna bilər. Bu qeyri-formal məlumat bölgüsündən fərqli olaraq əməkdaşlığı daha da struktur halına salır.

- **Milli komissiyalarda iştirak**
  Əmək müfəttişləri adətən əmək qanunvericiliyinin müzakirə edildiyi üçtərəfli milli komissiyalarda birbaşa və ya dolayı yolla iştirak edirlər. Amma bir çox ölkələrdə milli komissiyalar məcburi əmək və insan alveri məsələlərini daha xüsusi olaraq həll etmək üçün yaradılmışlar. Bəzən onlar Daxili İşlər Nazirliyi tərəfindən idarə olunurlar və bu da o deməkdir ki, əmək müfəttişləri çox vaxt bu komissiyalarda iştirak etmirlər.

**İtaliyada birgə yoxlamalar**

**Əmək Nazirliyinin Əməyin Qorunması üzrə Karabiner Komandanlığının işçiləri əmək qanunu və sosial müdafiə qaydalarının tətbiqinə nəzarət edirlər. Onlar əsasən çox həssas işçi qrupları, xarici və azlıqları hədəfə alırlar. Onların əsas vəzifəsi qeyri-qanuni və gizli işəgötürmə, sexlərdə əməyin istismarı, insanların alveri və köləlik də daxil olmaqla qeyri-insani əmək şəraitinə qarşı mübarizə aparmaqdır. Saxtakarlığın aşkarlanması, sosial ödəmələrdən qanunsuz tutulmalar və saxta sənədlərlə dövlət vəsaitlərinin alınması halları da bu qurumun işidir.**

**Burada işçilər həm əmək müfəttişi kimi, eyni zamanda Ədliyyə Polisinin Agent və yaxud Zabiti kimi təhsil alırlar. Əməliyyatlar avtonom şəraitdə və yaxud Karabineri inzibati vahidlərinə və digər hüquq mühafizə orqanlarına (məsələn Əmək Müfəttişləri və polis) yardım məqsədilə aparılır. Komandanlıq (rayon səviyyəli 102 qrup da daxil olmaqla) əmək və sosial müdafiə qanunvericiliyinin pozulmasına nəzarət, qabaqlama və aradan qaldırma, iqtisadi və əmək bazarı tendensiyalarının təhlili və öyrənilməsi və işçilərə hüquqi yardım göstərilməsi kimi fəaliyyətlər həyata keçirir.**

**Komandanlıq 2005-ci ildə 24500-dən çox yoxlama aparmış (128000 işçini əhatə edən) və ədliyyə orqanlarına 10000-dən çox şəxsi təqdim etmiş, və onlardan 188-i əsasən üçüncü ölkə qeyri-qanuni miqrant vətəndaşlarının əməyinin istismarı halları ilə əlaqədar həbs edilmişdir. "Marko Polo" adlı milli səviyyədə həyata keçirilmiş əməliyyat nəticəsində 90 nəfər çin biznesi ilə əlaqəsi olan şəxs qeyri-qanuni miqrantları istismar etdiklərinə görə həbs edilmişlər.**

Mənbə: Məcburi əmək istismarı məqsədi daşıyan insan alverinə qarşı mübarizə. Avropadan yaxşı təcrübə, BƏT/ICMPD, 2006.

**Əlavə 4-də bu cür təşkilatlar-arası əməkdaşlıq müqavilələrinin yaradıldığı ölkələrdən nümunələr verilmişdir.**

## Əmək müfəttişlərinin təhlükəsizliyi

Məcburi əmək ciddi cinayətdir, buna baxmayaraq elə hallar var ki, onlar çox səthi və ya çox təhlükəli zorlama halını ehtiva edə bilər. Əmək müfəttişlərinin fiziki təhlükəsizliyinə qarşı risklər onların işinə ciddi təsir edə bilər. Əmək müfəttişlərinin gəlişinə etiraz edən işəgötürənlərin onları qorxutması, təhqir etməsi və hətta fiziki güc tətbiq etməsi hallarına heç də az təsadüf edilmir. İşçilərin əsas hüquqlarını qulaq ardına vuran iş sahibləri əmək müfəttişlərinə qarşı aqressiv davranış nümayiş etdirməyə meylli olurlar. Məsələn, Braziliya və Fransada 2004-cü ildə əmək müfəttişləri işçilərin ciddi istismara məruz qaldıqları kənd təsərrüfatı sahələrini yoxlayarkən qətlə yetirilmişlər. Bəzi iş yerləri onların potensial gizli xarakteri və təhlükəli mühiti ilə əlaqədar olaraq, “gedilməməli ərazi” kimi qəbul edilə bilər. İndiyə qədər müəyyən edilmiş ən ciddi məcburi əmək hallarında iş sahibləri əslində işçilərin qaçmasının qarşısını almaq üçün silahlı dəstələrdən istifadə etdikləri ortaya çıxmışdır.

Buna görə də hökumətlər öz müfəttişlərinin təhlükəsizliyinin qorunmasına laqeyd qalmamalı, siyasi müdaxilədən çəkinməli və əmək müfəttişlərinin işinə mane olan və ya onların adına xələl gətirən iş sahiblərini cəzalandırmalıdır. Buna görə də əmək müfəttişlərinin işinə maneçiliyə görə aydın və effektiv sanksiyalar tərtib etmək vacibdir. Hökumət eyni zamanda polis və digər hüquq mühafizə orqanları arasında əməkdaşlıq müqavilələrinin imzalanmasına çalışmalı və bununla da potensial təhlükəli ərazilərdə dövlətin varlığını təmin etməli və eləcə də silahsız müfəttişlərin təhlükəsizliyini təmin etməlidir.



# QEYRİ-RƏSMİ İQTİSADİYYAT VƏ QEYRİ-QANUNİ İŞƏGÖTÜRMƏ İLƏ ƏLAQƏLƏR

## Qabaqlama və məlumatlılığın artırılmasının vacibliyi

Əmək müfəttişləri çox zaman ümumi sosio-iqtisadi kontekstdə işləməli olurlar ki, bu da çətindir. Qeyri-rəsmi əmək və qeyri-qanuni (miqrant) əməyinin qanuni əməyə münasibətdə böyük olduğu ölkələr xüsusi çətinliklər yaradır. Buna görə də əmək müfəttişlərinin işi ilə milli inkişaf planları və iş yerlərinin açılması strategiyaları arasında əlaqələrin yaradılması vacibdir. Təcrübə göstərir ki, təkcə istintaq üzərində qurulmuş strategiyalar uğurlu olmur. Burada problemin kökündən həllinə səbəb olacaq ölçülər də götürülməlidir, məsələn, yoxsulluq, məlumatsızlıq, diskriminasiya və yaxud çox sərt miqrasiya siyasəti. Məcburi əməyin səbəblərini aradan qaldırmaqla onun qarşısının alınması ciddi problemdir. Əmək müfəttişləri bu cür uzun müddətli məqsədin icra edilməsində çoxtərəfli rol oynaya bilələr.

- **Məlumatın artırılması**

  İşçilər tərəfindən öz hüquqlarına biganə münasibət, eləcə də iş sahibləri tərəfindən öz hüquqi məsuliyyətlərinə biganəlik geniş yayılmışdır. Üçtərəfli komissiyalarda eləcə də məlumatlılığın artırılması layihələrində iştirak etməklə, əmək müfəttişləri sosial tərəfdaşlar və ümumilikdə cəmiyyətin təlimləndirilməsində vacib rol oynaya bilərlər. Məlumatlılığın artırılması fəaliyyətləri aşağıdakı məsələləri əhatə edə bilər: ev qulluğu sektorunda iş icazəsini necə əldə etmək olar; işəgötürmə prosesi zamanı istismardan necə qaçmaq olar; necə şikayət etmək olar; miqrant işçilərlə necə ədalətli rəftar etmək olar; və yaxud mal təmin etmə işində məcburi əməyi necə aradan qaldırmaq olar. Bir çox ölkələrdə əmək müfəttişlərinin media ilə işləyərək məlumatların televiziya və radio vasitəsilə ötürmə təcrübəsi vardır.

- **Anti-diskriminasiya siyasəti**

  Bir çox ölkələrin milli anti-diskriminasiya siyasətləri vardır ki, bunlar da xüsusi qrup işçilərin (məsələn, qadın miqrant işçilər) həssaslığının azaldılması üçün başlanğıc nöqtəsi rolunu oynaya bilər. Anti-diskriminasiya siyasəti olan yerdə əmək müfəttişləri bəzi aşağıdakı məsələlər barədə təlim ala bilərlər: həssas sualları necə verməli; bildiriş proseduru barədə necə soruşmalı; şirkətin iş yerində diskriminasiya, eləcə də aqressiya və zorakılığa qarşı siyasətinin olduğunu necə müəyyən etməli.

- **Həssas işçi qrupları üçün proqramlar**

  İşçilərin həssas qrupları müxtəlif növlərə bölünür və onlara iqtisadi fəaliyyətin fərqli sahələrində rast gəlinir və çox zaman onlar həmçinin məcburi əməyə məruz qalırlar. Həmçinin müxtəlif qanuni çərçivələr içərisində müxtəlif növ işçilər vardır və onlar müxtəlif vəziyyətlərdən asılı olaraq "həssas" kimi təsvir oluna bilərlər. İstənilən həssas işçi qrupu ilə işləyərkən əmək müfəttişləri çoxlu "ədalətsiz əmək praktikalarını" yoxlayır, məsələn, maaşlar və əmək müqavilələri kimi faktorlar.

Əksər məcburi əmək qurbanları öz hüquqlarını bilmirlər və bəzən iş sahibləri spesifik qanunlar haqqında məliumatlı olmaya bilərlər, məsələn sənəd sahiblərinin icazəsi olmadan onların şəxsiyyətini müəyyən edən sənədlərin saxlanması kimi qanunlar. Buna görə də məlumatlandırma kampaniyaları məcburi əməyə qarşı milli strategiyalarının vacib elementidir. Bəzi ölkələrdə əmək müfəttişləri media ilə işləyərək əmək qanunvericiliyi haqqında məlumatlılığın artırılması sahəsində ciddi təcrübəyə malikdirlər. Media ilə işləyərkən potensial zərərçəkənlərin kimliyini riskə atmamaq önəmlidir. Buna görə də məlumatlılıq kampaniyaları dizayn edərkən işçi və işəgötürən təşkilatları eləcə də QHT-lərlə işləmək məsləhətdir.

# Qeyri-formal iqtisadiyyatda məcburi əmək

"Qeyri-formal iqtisadiyyatın" universal bir anlayışı yoxdur, amma ümumi konsensus belədir ki, bu iqtisadiyyat qanun və digər rəsmi çərçivələrdən kənarda olan bir çox geniş iqtisadi fəaliyyətləri əhatə edə bilər. Qeyri-rəsmi işləməyin bir çox formaları ola bilər məsələn, özünüməşğulluq, maaş almayan ailə üzvləri və yaxud qeyri-formal iqtisadiyyatda çalışmayan işçilər. Belə hallar kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, ev işləri və digər xidmət sahələrində geniş yayılmışdır. Deklarasiya edilməmiş iş çox zaman qeyri-qanuni iş ilə qarşılaşdırılır, xüsusilə də belə bir fəaliyyətin qanuni ola biləcəyi inkişaf etmiş ölkələrdə bu hallara rast gəlinir. İƏİT-ə görə qeyri-qanuni iş hüquqi cəhətdən icazə verilməyən iş hesab olunur. Bu çox zaman qeyri-qanuni miqrant işçiləri əhatə edir və aşağıda daha geniş müzakirə olunmuşdur. Aşağıdakı hissələrdə inkişaf etməkdə olan ölkələrdə geniş yayılmış məcburi əmək halları müzakirə edilir.

BƏT-in araşdırmalarına görə məcburi əməyin ənənəvi formalarına daha çox kənd yerlərində rast gəlinir və bu yerlər çox zaman təcrid olunmuş olur və çox vaxt sadəcə nəqliyyat vasitələrinin olmaması səbəbindən əmək müfəttişləri üçün əlçatmaz olur. Əksər işçilər kənd təsərrüfatında çalışır və ən çox da inkişaf etməkdə olan ölkələrdə belə işçilər öz hüquqlarını bilmirlər. Adətən şəhər yerləri ilə müqayisədə kənd yerlərində savadsızlıq daha yüksəkdir. Məsələn, Hindistanda olan borcdan asılı işçilər kənd yerlərində yaşayırlar və onların çox formal təhsili olmur. Burada ənənəvi praktikalar da rol oynayır. Məsələn, Nigerdə köləlik və köləliyə oxşar praktikaların rəsmi şəkildə qadağan olunmasına baxmayaraq, kölələrin sələfləri hələ də əmək bazarında diskriminasiyadan əziyyət çəkirlər. Buna görə də bir çox kölə sələfləri öz "sahiblərinin" yanında qalaraq az və yaxud heç bir maaş almamaqla çalışmaqda davam edirlər. Bundan əlavə kənd təsərrüfatı işi çox vaxt mövsümi olur və miqrant işçiləri cəlb edir. Məsələn, Avropada ən əlverişsiz məcburi əmək halları məhz kənd təsərrüfatında çalışan mövsümi miqrant işçiləri əhatə etmişdir.

Qeyri-formal iqtisadiyyatda məcburi əməyin müəyyən edilməsi və ona qarşı mübarizə bütün tərəfdaşların birgə səylərinin olmasını tələb edir. Ən vacib şərt kifayət qədər əmək müfəttişlərini işə götürüb onları təlimləndirmək və iqtisadiyyatın formal və qeyri-formal sahələrinə nəzarət etməkdir. BƏT-in araşdırması göstərmişdir ki, dünya üzrə 40000-dən 45000-dək əmək müfəttişinə ehtiyac vardır. Kifayət qədər əmək müfəttişi olmadan qeyri-formal iqtisadiyyatda çalışan işçiləri müəyyən etmək çətindir. Bundan əlavə yuxarıda qeyd edildiyi kimi əmək müfəttişləri icma təşkilatları (məs., müşahidə komitələri), həmkarlar ittifaqları, işəgötürən təşkilatları, özəl auditorlar və digər tərəfdaşlarla əməkdaşlıq qurmalıdırlar ki, öz imkanlarını genişləndirsinlər.

**Bu digər tərəfdaşlar tərəfindən irəli sürülə bilən müxtəlif əlavə tədbirlərlə tamamlanmalıdır, məsələn:**

- Qeyri-rəsmi iqtisadiyyatda çalışan işçilər üçün təhsil, savadlılıq və məlumat artırma proqramları;
- Azadlığa buraxılmış məcburi əmək işçiləri və onların ailə üzvləri üçün mikro-kredit və digər gəlir gətirən mexanizmlərin hazırlanması;
- İşçilərin təşkilatlanmaq hüquqlarının təbliğ edilməsi, məsələn ev işçilərinin assosasiyası və yaxud kənd təsərrüfatı işçilərinin xüsusi təşkilatları;
- Xüsusən qeyri-formal iqtisadiyyatda çalışan işçilər üçün sosial müdafiə və digər sosial rifah xarekterli sxemlərinin yaradılması;
- BƏT KMİT (Kiçik Müəssisələrin İşinin Təkmilləşdirilməsi) metodologiyası eləcə də kiçik və orta sahibkarlıq subyektlərini və ümumi anti-məcburi əmək fəaliyyətlərini əhatə edən təşəbbüslərin yayılması.

Şəxsi evlərin toxunulmazlığı prinsipi səbəbindən ev işlərinin yoxlanması xüsusi bir haldır. Ev işçilərinin əksəriyyətinin təcrid olunması, dil maneıələri və bacarıqların olmaması səbəbindən bu işçilər insan alveri və məcburi əməyə daha çox məruz qala bilirlər. Qaynar xətt və icma əsaslı təşkilatlarla əməkdaşlıq məlumatın alınmasında yardımçı ola bilər və şübhə olduğu halda əmək müfəttişləri "sürpriz elementindən" istifadə edərək evə icazə alaraq girə bilər və icazə alandan sonra öz yoxlamalarını apara bilərlər. Bu cür "gizli halların" ortalığa çıxarılmasında yerli media ilə əlaqə saxlamaq da bir vasitə ola bilər. Ciddi hallarda əmək müfəttişləri polisə xəbər verməlidirlər.



**Hindistanda borcdan asılı əməyə qarşı mübarizədə müşahidə komitələri və əmək qanununun mühafizəsi**

**Müxtəlif araşdırma və sorğulara görə borcdan asılı əmək Hindistan və Cənubi Asiya ölkələrində qeyri-formal iqtisadiyyatın müxtəlif sahələrində geniş yayılıb, məsələn, kənd təsərrüfatı, mədənçilik, qiymətli daşların kəsilməsi, ipək biznesi, əl toxucu dəzgahları və və elektrik toxucu dəzgahları, kərpic karxanaları və düyü dəyirmanlarında. Qeyri-formal iqtisadiyyatda çalışan işçilərin bir çoxu iqtisadi böhran və risklərlə bacara bilmirlər və çox zaman ən adi tələbatlarını ödəmək üçün çox az imkanları olur. Çox zaman bu bəladan qurtarmağın yeganə yolu borc götürmək olur və bu da çox vaxt borcdan asılılığa gətirib çıxarır. Borcdan asılılıq işçilərin danışıq aparmaq imkanlarını əlindən alır və onları istismar edilmək üçün ciddi risk qarşısına qoyur.**

**Hindistan Hökuməti 1976-cı ildə Borcdan Asılı Əmək Sisteminin (Ləğvi) Aktı ilə borcdan asılı əməyi qeyri-qanuni élan etmişdir. Bu qanun çərçivəsində bir çox yerlərdə Müşahidə Komitələri yaradılmışdır; amma onlar çox vaxt zərərçəkənlərin müəyyən edilib reabilitasiya edilməsində qeyri-səmərəli olurlar. Buna görə də BƏT qanunu mühafizə sisteminin gücləndirilərək yerli səviyyədə müşahidə komitələri ilə birgə işləməsini məsləhət görür. Məsələn, Hindistanda Minimum Maaşlar Aktı və istehsalat birlikləri qaydalarının (Fabriklər Aktının bir hissəsi) fəal tətbiqi nəticəsində borcdan asılı əməyin qarşısı alına bilər. Əmək müfəttişliyi və fabrik departamenti iş sahələri və sexlərə tez-tez nəzarət etməli və yüksək vəzifəli şəxslərin yanında minimum əmək haqqı və digər ödənişlərin edilməməsinə dair şikayətləri qeydiyyata almalıdırlar.**

**Buna parallel olaraq, Hökumət Müşahidə Komitələri üçün seminarlar təşkil etməlidir ki, onların işinin səmərəsi artsın. Bu komitələrin işi sadəcə olaraq müəyyən edilmiş hallara nəzarət etməklə bitməməli, əksinə həssas qruplar və sektorların fəal nəzarətini həyata keçirmək olmalıdır.**

Mənbə: Sathya Maria: Tamil Naduda Borcdan asılı Əmək – Əmək Müfəttişliyi üçün Problem, BƏT 2005

# Qeyri-qanuni işəgötürməyə nəzarət

Bir çox ölkələrdə əmək müfəttişliyinə işəgötürmənin qanunauyğun olmasına nəzarət etmək və pozuntuları istintaq etmək tapşırığı verilmişdir və bu həm yerli həm də qeyri-qanuni vəziyyətdə olan miqrant işçiləri əhatə edir. Getdikcə daha çox ölkədə qeyri-qanuni əməkdən istifadə edən iş sahiblərinə qarşı cəzalar artırılır. Qeyri-qanuni miqrant işçilərin işə götürülməsi xüsusilə həssas məsələdir və siyasət yaradanlar və hüquq mühafizə orqanları üçün çoxlu çətinliklər yaradır. Qeyri-rəsmi iqtisadiyyat çox vaxt qeyri-qanuni immiqrasiya üçün “çəkici” factor rolunu oynayır. Kompleks tədbirlər görülməlidir ki, onlar qeyri-formal iqtisadiyyatın yaratdığı tələbi həll etsin, qanuni immiqrasiya variantını təklif etsin və qeyri-qanuni əməkdən istifadə edən iş sahiblərinə adekvat cəza versin.

BƏT-in Konvensiya və Tövsiyyələrinin tətbiqi üzrə Ekspertlər Komitəsi özünün 2006-cı il tarixli Əmək Müfəttişliyinə dair Ümumi Sorğusunda bir daha yada salırdı ki, əmək müfəttişlərinin əsas vəzifəsi immiqrasiya qanununun mühafizəsi yox, işçiləri müdafiə etməkdir. O eyni zamanda qeyd edirdi ki, ölkədə qeyri-qanuni yaşayan işçilər ikiqat cərimə verməli olurlar, onlar iş yerlərini itirməklə yanaşı ölkədən qovulmaq riski ilə də üzləşirlər. Ona görə də əmək müfəttişləri əsas diqqəti ən çox qeyri-qanuni işçilərin məruz qaldıqları istismar edici əmək şəraitinə verməli və əmin olmalıdırlar ki, bütün işçilər əmək münasibətləri nəticəsində yaranmış qanuni hüquqlardan bəhrələnsinlər. Amma praktikada çox vaxt iş sahiblərinə verilən cəza çox cüzi olur və miqrantlar, xüsusilə əgər onların statusu qeyri-qanunidirsə, öz hüquqlarını tələb etməkdə çətinlik çəkirlər.

**Qeyri-qanuni işə götürməyə qarşı mübarizə, Fransa**

**Əmək Məcəlləsinə uğurlu düzəlişlər indi qeyri-qanuni işə götürmə hallarına görə aşağıdakı cəzaları nəzərdə tutur: 3 ilə qədər həbs cəzası (əgər kiçik yaşlılar cəlb olunubsa 5 il), 45000 Avroyadək maliyyə cəzası, eyni sektorda iş sahibi kimi fəaliyyət göstərməyə 5 ilə qədər qadağa və qərarın mümkün nəşri. Hökumət Qeyri-qanuni Əməyə qarşı Nazirliklərarası İdarə yaratmış və bu idarədə ədliyyə, əmək, kənd təsərrüfatı, nəqliyyat, daxili işlər, maliyyə və digər nazirliklər toplanmışdır. İdarənin vəzifəsi bunlardan ibarətdir:**

- **Qeyri-qanuni əmək və qanuna əməl etmə şərtlərinə nəzarətə dair siyasətin formalaşdırılması;**
- **Nəzarət funksiyası daşıyan dövlət xidmətlərini əlaqələndirmək;**
- **Region və ya rayon üzrə səlahiyyətli şəxslərin təlimini təşkil etmək;**
- **Zabitlər şəbəkəsinə hüquqi və metodoloji dəstək vermək;**
- **Qeyri-qanuni əməyin inkişafını öyrənən araşdırmaya başlatmaq.**

**İşçinin həssas yaxud asılı vəziyyətindən istifadə edərək onu qeyri-insani əmək və yaşayış şəraitinə məruz qoymaq, yaxud maaş ödəmədən belə bir şəxsin əməyindən istifadə etmək, yaxud məqsədli şəkildə görülmüş işə adekvat olmayacaq dərəcədə az maaş vermək kimi fəaliyyətlər cinayət qanunvericiliyi çərçivəsində istintaqa cəlb oluna bilər. 2005-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsi Fransadan məcburi əməyə qarşı müddəalarını gücləndirilməsini tələb etmişdir. Bu mühakimə Toqodan olan bir gəncin hadisəsinə əsaslanmışdır: bu hadisədə bu şəxs ev qulluqçusu kimi saxlanmış və heç bir kompensasiya almamış və sosial ədalətsizliyə məruz qalmışdır. Belə ki, qeyri-qanuni əməklə mübarizə zərərçəkənlərin qorunması üçün güclü mexanizm və adekvat cəza sanksiyaları ilə tamamlanmalıdır.**

Mənbə: V. Frhr von Richthofen: Avropada Məcburi Əmək və İnsan Alveri ilə mübarizədə Əmək Müfəttişlərinin Rolu, BƏT Cenevrə, 2007

# Özəl işəgötürmə agentlikləri və təminat kanallarına nəzarət

Məcburi əmək və insan alverinin qurbanları çox zaman onları iş şəraiti barədə aldadan, işəgötürmə rüsumlarını saxtalaşdıran və bəzən daha geniş kriminal qrupların bir hissəsi olan saxtakar vasitəçilər tərəfindən ələ alınırlar. Buna görə də özəl işəgötürmə şirkətlərinə dair qaydaları gücləndirmək və nəzarət mexanizmlərinin yaxşılaşdırmaq vacibdir ki, işəgötürmə sektorunda biznes etikası normaları təbliğ edilsin və qeyri-qanuni və yaxud qeyri-rəsmi işəgötürənlərin bazarı ləğv edilsin.

Əmək müfəttişləri özəl işəgötürmə agentlikləri və podratçıların (eləcə də başqa ad altında fəaliyyət göstərənlər, məsələn, səyahət, model, tələbə-ev qulluqçusu, və s.) müəyyən edilməsi və nəzarət olunmasında mühüm rol oynayırlar. BƏT özəl işəgötürmə agentlikləri haqqında təlimat və təlim kitabı nəşr etmişdir və bunlar insan alverinin qarşısının alınması kontekstində miqrant işçilərin toplanması ilə bağlı məsələləri işıqlandırır.[5] Bu məsələ BƏT-in qeyd olunan vəsaitlərini oxumaqla ətraflı öyrənilə bilər. Hər iki kitab başqa agentliklərlə yanaşı əmək müfəttişləri üçündür.

[5] BƏT (2007): Özəl İşəgötürmə Agentlikləri: Tənzimləmə, Nəzarət və Mühafizə, Cenevrə, 2007; BƏT (2006): Məcburi Əmək məqsədilə İnsan Alveri: MİqrantİŞçilərin Toplanmasına necə Nəzarət Etməli, Cenevrə, 2006

Məcburi əmək və insan alveri çox zaman təminat sahəsində də baş verir. Bəzi sənaye sahələrindəki rəqabətin əməyin vəziyyətin mənfi təsiri ola bilər və ən pis hallarda bu məcburi əməyə aparıb çıxara bilər. Bir çox təhcizatçılara elə qiymət ödənilir ki, bu məhsulun maya dəyəri belə etmir. Əgər onlar gəlir əldə etmək istəyirlərsə, xərcləri azaltmaq istədikləri sahə əmək haqqıdır. Bu hallarda təchizatçılar bu yükü əmək kontraktorlarına verirlər və onlar da öz növbəsində qeyri-müyyən vəziyyətdə olan miqrant işçiləri istifadə edirlər. Çox zaman kontraktorlar istismara etiraz etməyən miqrant işçiləri istifadə edirlər.

Biznes sektorunun məcburi əmək və insan alverinin qarşısının alınması və ləğv edilməsinə dair sadiqliyi məhdud olsa da, əsas ilkin addımlar atılmışdır. Bunlardan biri 2006-cı ilin yanvar ayında "Afina Prinsiplərinin" qəbul edilməsidir və bu sənəd cinsi istismar məsələlərini əhatə edir və onu artıq bir neçə böyük şirkətlərin rəhbərləri imzalamışlar. BƏT 2007-ci ildə Biznes Liderləri üçün 10 Prinsip adlı sənədi təqdim etmişdir və sənəd Məcburi Əmək və İnsan Alverinə qarşı Biznes Alyansı üçün tərtib olunmuşdu. Bu sənədlər BMT-in Qlobal Kompakt 2007 Liderlər Sammitində iştirakçılara paylanmışdır.

Bundan əlavə məcburi əmək və insan alverinə qarşı biznes fəaliyyəti şirkətlərin iş yerində işçilərin fundamental hüquqlarının qorunmasına dair siyasətində öz əksini tapmışdır. Bir çox şirkətlərdə bu siyasət sosial audit, hesabatlılıq və daxili təlim vasitəsilə icra olunur. Şirkətlərin öz təchizat sistemlərində məcburi əmək hallarını həll etməkdə könüllü təşəbbüsləri əmək müfəttişliyinin fəaliyyəti ilə də tamamlanmalıdır. Məsələn, şirkətlər əmək müfəttişləri ilə birgə risk-qrupu təchizatçılarını müəyyən etmək, özəl audit haqqında məlumatı bölüşdürmək və eləcə də qeyri-maliyyə hesabatlarını bölüşdürmək vasitəsilə əməkdaşlıq edə bilərlər.



**İordaniyada əmək müfəttişləri və işverənlərin məcburi əməyə qarşı birgə fəaliyyəti**

**2006-cı ildə Amerikanın Milli Əmək Komitəsi (MƏK) İordaniyanın Etibarlı Sənaye Zonalarında (ESZ) əmək praktikalarını araşdıraraq istismar edici əmək (məcburi əmək halları da daxil olmaqla) şəraiti barədə səs-küylü hesabat hazırladı. Araşdırma Amerika bazarına güzəştli giriş hüququ olan fabrikləri əhatə etmişdi. MƏK-in hesabatı İordaniyada ciddi əks-səda doğurdu və az sonra Əmək Nazirliyi yoxlama kampaniyasına start verdi. Kampaniyanın nəticəsi olaraq 114 cərimə tətbiq olundu və iki müəssisə bağlandı. MƏK-in bəzi iddiaları, xüsusilə fiziki zorakılıq və hərəkət azadlığına məhdudiyyət iddiaları, sübut oluna bilməsə də qeyd olundu ki, miqrant işçilər müsahibədən əvvəl və ya müsahibə zamanı qorxudulmuşlar. Daha bir məsələ ondan ibarət olmuşdur ki, qanunu mühafizə edərkən daha çox miqrant işçilərin iş icazəsi yoxlamalara məruz qalmış, amma məcburi çox işlətmə və ya maaşların ödənilməsindəki pozuntular kimi əmək qanunu pozuntularına diqqət edilməmişdir. Bundan əlavə əmək müfəttişlərinin sayının yetərsizliyi və onların ESZ-i yoxlamaq üçün bacarıqlarının zəif olması qeyd edilmişdir.**

**MƏK-in hesabatına cavab olaraq ESZ-dəki iş sahibləri və İordaniya Geyim, Akssesuar və Tekstil İxracatçıları Assosasiyası (İGATİ) BƏT-lə əməkdaşlıq edərək təlim kursları təşkil etmiş və fabriklərdə rast gəlinən istismar hallarını həll etmək məqsədilə məlumatlılıq fəaliyyətləri həyata keçirmişlər. Bu fəaliyyətlər iş sahiblərini birbaşa cəlb edirdi və onlar əmək şəraiti, işə götürmə praktikaları və miqrant işçilərin cəlb olunmasında vəziyyəti yaxşılaşdırmağa həvəsləndirildi. Şirkət rəhbərləri və İGATİ həmçinin İordaniyada yerləşən qlobal alıcılarla yaxından işləyərək sosial məsuliyyət proqramları kontekstində əməkdaşlıq etmək, davranış kodeksi və könüllü sertifikatlaşdırma sisteminə əməl etmək sahəsində çalışmışlar. Davam edən fəaliyyətlər ixrac üçün istehsal edən fabriklərdə müntəzəm yoxlama məqsədilə vahid və geniş sosial audit mexanizmini yaratmağa dəvət edir.**

Mənbə: Etibarlı Sənaye Zonalarında Miqrant İşçilərin Statusu barədə Əmək Nazirliyinin Hesabatı, Ammam, 2006.



# TƏLİM MODULLARI VƏ ÖYRƏNMƏ FƏALİYYƏTLƏRİ

Bu hissədə təlim modulları və öyrənmə fəaliyyətlərindən ibarət iki proqram verilmişdir və onlardan biri beş gün digəri isə üç günlükdür. Təqdim edilənlər sadəcə olaraq nümunədir və biz təklif edirik ki, siz bu ideyaları öz ölkənizdəki əmək müfəttişlərinin ehtiyac və maraqlarına əsasən uyğunlaşdırasınız. Mötərizədə verilmiş nömrələr öyrənmə fəaliyyətlərinin sayını və yaxud əlavədə verilmiş sənədləri göstərir və bunlar təlim proqramına inteqrasiya oluna bilər.



# Beş günlük seminar

## Gün 1 Məcburi Əmək – əmək müfəttişliyi üçün problem

**Gündüz sessiyası**

- Salamlaşma
- Giriş və iştirakçıların gözləntiləri
- Kursun təqdimatı
- Anlayış və konsepsiyalar
- Məcburi əməyi istismar və qaçaqmalçılıq məqsədilə insan alverindən fərqləndirmək – qrup işi (1)

**Günorta sessiyası**

- İqtisadi sektorlar və regionlarda məcburi əmək: faktlar və rəqəmlər
- Məcburi əmək video – müzakirə
- Sizin region/ölkədə məcburi əmək və insan alveri – qrup işi (2)

## Gün 2 Hüquqi və siyasi çərçivə

**Gündüz sessiyası**

- Əvvəlki günün xülasəsi – anlayış və konsepsiyalar
- Məcburi əmək və insan alverinə qarşı beynəlxalq alətlərin əsas prinsipləri
- Müvafiq milli qanunlar və qaydalar – qrup işi (3)

**Günorta sessiyası**

- Məcburi əmək və insan alverinə qarşı regional və qlobal siyasət
- Məcburi əmək və insan alverinə qarşı milli fəaliyyət planları
- Mİlli cavab strategiyasının qiymətləndirilməsi – qrup işi (4)

## Gün 3 Əmək müfəttişlərinin rolu və vəzifəsi

**Gündüz sessiyası**

- Əvvəlki günün xülasəsi – milli cavab
- Məcburi əməyə qarşı mübarizədə əmək müfəttişlərinin funksiyalarının tətbiq edilməsi
- İnstitusional struktur və resursların qiymətləndirilməsi – qrup işi (5)
- Tətbiq etmənin çətinlikləri

**Günorta sessiyası**

- Məcburi əməyin ilkin göstəriciləri
- İşlərin göstəriciləri və istintaqı – qrup işi (6)
- Təqib və cəzalar
- Qeyri-rəsmi iqtisadiyyat və qeyri-qanuni işə götürmə halları ilə bağlılıq

## Gün 4 Qabaqlama, müdafiə və əməkdaşlıq

**Gündüz sessiyası**

- Məcburi əmək qurbanlarına necə münasibət göstərilməli: müdafiə və reabilitasiya məsələləri
- Həmkarlar təşkilatı və QHT-lərin qurbanlarla işini əks etdirən qısa video filmlər
- Milli göndəriş mexanizmi – qrup işi (7)

**Günorta sessiyası**

- Qabaqlama və əmək müfəttişlərinin rolu
- İşə götürmə prosesinə monitorinq
- Digər tərəfdaşlarla əməkdaşlıq
- Məcburi əməyin qarşısının alınması və tərəfdaşların tapılması – qrup işi (8)

## Gün 5 Gələcək planlama

**Gündüz sessiyası – işçi qruplar**

- Əməliyyat qaydalarının yazılması – qrup işi (9)
- Müfəttiş hesabatları – qrup işi (10)
- Əməliyyat planlama – qrup işi (11)

**Günorta sessiyası**

- İşçi qruplardan hesabatlar
- Kursun qiymətləndirilməsi
- Bağlanış

# Üç-günlük məşğələ

## Gün 1 Məcburi əmək – əmək müffətişliyinin problemi

**Gündüz sessiyası**

- Açılış
- İştirakçıların təqdimatı və gözləntiləri
- Məşğələnin gündəliyi
- Anlayış və konsepsiyalar
- İqtisadi sektorlar və regionlar üzrə məcburi əmək: faktlar və rəqəmlər

**Günorta sessiyası**

- Məcburi əmək və insan alverinə qarşı beynəlxalq alətlərin əsas prinsipləri
- Məcburi əmək və insan alverinə qarşı regional və milli fəaliyyət planları
- Milli siyasət, qanunlar və təlimatlar – qrup işi (3)

## Gün 2 Müdaxilə üçün əsaslar

**Gündüz sessiyası**

- Məcburi əməyin göstəriciləri
- İşlərin istintaqı – qrup işi (6)
- İstintaq və cərimələr

**Günorta sessiyası**

- Zərərçəkənlərin müdafiəsi və yardım üçün yönləndirmə
- Önləmə tədbirləri: məlumatlılığın artırılması və sosial dialoq
- Digər tərəfdaşlarla əməkdaşlıq

## Gün 3 Gələcək planlama

**Gündüz sessiyası – işçi qruplarda**

- Əməliyyat qaydalarının yazılması – qrup işi (9)
- Müfəttiş hesabatları – qrup işi (10)
- Əməliyyat planlama – qrup işi (11)

**Günorta sessiyası**

- İşçi qruplardan hesabatlar
- Kursun qiymətləndirilməsi
- Bağlanış



# Əlavə 1: Öyrənmə tədbirləri

| | |
|---|---|
| **Tədbir 1** | **Məcburi əməyin istismardan və insan alverinin qaçaqmalçılıqdan fərqləndirilməsi** |
| Məqsəd | Sizə məcburi əmək/insan alveri vəziyyətlərini müəyyən etmək və bu halların istismar və hərəkətin digər formalarından fərqləndirməkdə kömək etmək. |
| Tapşırıq | Əlavə 2-də verilmiş 1-4 saylı işləri oxuyun və hər işə uyğun cinayəti müəyyənləşdirin (məcburi əmək, insan alveri, qaçaqmalçılıq və ya digər qanunların pozulması). Öz qərarınızı əlavə 3-də verilmiş beynəlxalq alətlərin izahına uyğun olaraq əsaslandırın. |
| **Tədbir 2** | **Region/ölkə üzrə məcburi əmək və insan alveri** |
| Məqsəd | Dünyanın müxtəlif yerlərində mövcud olan məcburi əmək və insan alverinin formaları haqqında ətraflı öyrənmək və öz ölkə/regionun haqqında məlumatları digər iştirakçılarla paylaşmaq. |
| Tapşırıq | Məcburi əmək/insan alverinin mövcud formalarının xəritəsini çək, məlumatı hardan əldə etdiyini izah et və məcburi əmək olmasına şübhə etdiyin praktikaları ayrıca göstər və onların əlavə araşdırma tələb etdiyini göstər. Öz ölkənizdə məlumat toplama təcrübəsindən danış, hansı çatışmayan və uğurlu tərəflər olduğunu göstər. |
| **Tədbir 3** | **Müvafiq milli qanun və təlimatlar** |
| Məqsəd | Sizin ölkənizdə mövcud olan milli qanunvericiliyi müzakirə etmək və qiymətləndirmək |
| Tapşırıq | Daxil olduğunuz qrupun üzvləri ilə əmək və cinayət məcəllələrinin müvafiq müddəalarını müzakirə edin və onların beynəlxalq standartlara uyğunluğunu dəyərləndirin. Həmçinin mövcud qaydaların kifayət etdiyini müzakirə edin və onların məcburi əməyə qarşı mübarizə aparmaq üçün əmək müfəttişlərinə kifayət qədər güclü mandat verdiyini dəyərləndirin. |
| **Tədbir 4** | **Milli cavab mexanizminin qiymətləndirilməsi** |
| Məqsəd | Məcburi əmək/insan alverinə qarşı mübarizəyə dair milli siyasətin müzakirəsi və qiymətləndirilməsi |
| Tapşırıq | Ölkənizin məcburi əmək və insan alverinə qarşı mübarizəyə dair milli fəaliyyət planını əldə edin. Planın əsas məqamlarına dair, xüsusilə onun tətbiqi və əmək bazarının tənzimlənməsinə dair hissələri barədə qısa arayış hazırlayın. Fəaliyyət planının güclü və zəif tərəflərini və əgər göstərilibsə, əmək nəzarətinin rolunu qeyd edin. Fəaliyyət planına əlavələr və eləcə də məcburi əmək və insan alverinə dair əmək nəzarətinə aid dəyişikliklər təklif edin. |

**Tədbir 5** **İnstitusional struktur və resursların qiymətləndirilməsi**

Məqsəd: Milli fəaliyyət planının icrasını və əmək müfəttişlərinin rolunu müzakirə etmək və qiymətləndirmək

Tapşırıq: Qrup iştirakçıları ilə birgə milli fəaliyyət planının icrası və onun təsirini müzakirə edin. Xüsusilə buraya cəlb olunmuş institutlar, onların güclü və zəif tərəfləri və büdcə ayırmalarına diqqət edin. Əmək müfəttişlərinin daha fəal cəlb olunmasının mümkünlüyü və bunun gətirəcəyi çətinlikləri müəyyən edin.

**Tədbir 6** **Göstəricilər və işlərin istintaqı**

Məqsəd: Göstəriciləri real işlərə tətbiq etmək, eləcə də istintaq prosedurları və texnikalarını müzakirə etmək

Tapşırıq: Kursun əvvəlində müzakirə etdiyiniz işlərə yenidən baxın (əlavə 2). Hər iş üzrə göstəricilərin siyahısını hazırlayın. Dəyərləndirmə əsasında, zərərçəkənləri qoruya biləcək və cinayətkarları təqib edə biləcək istintaq prosedurları təklif edin. Siz öz səlahiyyətləriniz çərçivəsində nələr edə biləcəyinizi dəqiqləşdirin və digər təşkilatlardan (məsələn, polis, QHT) nə cür kömək lazım olduğunu müəyyən edin.

**Tədbir 7** **Milli Yönləndirmə Mexanizmi (MYM)**

Məqsəd: Zərərçəkənlərin qorunması və yönləndirilməsində əmək müfəttişlərinin rolunu anlamaq

Tapşırıq: MYM-in sizin ölkənizdə institusional forma aldığını müəyyən edin. Əgər belədirsə, əsas tərəfdaşlar və vacib prinsipləri öyrənin. Əmək müfəttişlərinin MYM-ə cəlb olunmasına dair təkliflər hazırlayın. Əgər belə mexanizm yoxdursa, o zaman potensial zərərçəkənləri sonrakı kömək üçün yönləndirə biləcəyiniz mümkün tərəfdaşlar, xüsusilə QHT və həmkarlar təşkilatlarının siyahısını hazırlayın. Bu təşkilatlarla Əməkdaşlıq Sazişinin imzalanmasının mümkünlüyünü müzakirə edin.

**Tədbir 8** **Məcburi əməyin önlənməsi və tərəfdaşların tapılması**

Məqsəd: Əmək müfəttişlərinin qabaqlayıcı tədbirlərdə rolunu başa düşmək və konkret təkliflər hazırlamaq

Tapşırıq: Təsəvvür edin ki, məcburi əmək və insan alverinə qarşı məlumatlılıq kampaniyası təşkil etmək üçün sizin təşkilata müraciət edilmişdir. Bu kampaniya çərçivəsində hansı məsələləri qaldırmaq istərdiniz, tərəfdaşlar kimlərdir və bu kampaniyanın əsas strategiyası necə olardı?

**Tədbir 9** **Əməliyyat təlimatının hazırlanması**

Məqsəd: Məcburi əmək və insan alverinə nəzarət üzrə əməliyyat təlimatının hazırlanması

| | |
|---|---|
| Tapşırıq | Sizin tapşırığınız, həmkarlarınız ilə birgə, məcburi əməyin müəyyən edilməsinə dair əməliyyat təlimatını hazırlamaqdır. Aşağıdakılar bu cür təlimatın hazırlanması üçün baza rolunu oynaya bilər: |

- Məcburi əmək/insan alverinə dair əmək şəraitinə dair siyasətin müddəaları
- Milli qanun və təlimatlar
- Göstəricilər
- Real və mümkün zərərçəkənlərə münasibət

Bu təkliflərlə özünüzü məhdudlaşdırmayın. Təklifləri daha da təkmilləşdirmək üçün digər qruplarla bölüşün. Təklif olunur ki, sonda bir müfəttiş plenar sessiyada təqdim edilməsi üçün son versiyanı hazırlasın.

## Tədbir 10 Müfəttiş hesabatları

| | |
|---|---|
| Məqsəd | Məcburi əməyə dair hesabat formasının hazırlanmasında sizə kömək etmək |
| Tapşırıq | Qrupda işləyərək, sizin müfəttişliyin istifadə etdiyi hesabat formasını götürün.Bu formaya iş yerində məcburi əməyə dair bölmə əlavə edin. Yenə də təklif olunur ki, bunu daha da təkmilləşdirmək üçün digər qruplarla bölüşün və sonda bir müfəttiş hamı ilə paylaşmaq üçün son versiyanı hazırlasın. |

## Tədbir 11 Fəaliyyətin planlaşdırılması

| | |
|---|---|
| Məqsəd | Məşğələdən sonra tətbiq etməyə hazırlaşmaq |
| Tapşırıq | Bu məşğələdə nələri müzakirə etdiyinizə yenidən nəzər salın. Sizin icra edəcəyiniz fəaliyyətlər və başqalarından (məsələn, siyasətçilər və ya baş əmək müfəttişləri) gözlədiyiniz fəaliyyətlər haqqında düşünün. Aşağıdakılardan ibarət siyahı hazırlayın: |

- Hansı növ fəaliyyət tələb olunur?
- Bu fəaliyyət nə zaman başa çatmalıdır?
- Kimlər cəlb olunmalıdır?
- Hansı resurslar tələb olunacaq?



# Əlavə 2: Kazuslar

Aşağıdakı kazuslar (halların təsviri) dünyanın müxtəlif regionlarında BƏT-in sahə və araşdırma fəaliyyətləri çərçivəsində toplanmışdır. Onlar məcburi əməyə səbəb ola biləcək çox geniş formada istismaredici praktikalar haqqında məlumat təmin edir. Təlim kursunu hazırlayarkən hər bir kazusun müvafiq ölkədəki xüsusi kontekstə uyğun istifadə olunması məsləhət görülür. İştirakçılar verilmiş kazusu diqqətlə oxumalı və məcburi əməyin göstəricilərini müəyyən etməlidirlər. Onlar verilmiş kazusun məcburi əmək və ya insan alveri halı olub-olmadığına qərar verməli və müvafiq müdaxilə formasını təklif etməlidirlər.

## Kazus 1

Linh gənc vyetnamlı bir qadındır və onun tikişçilik üzrə təhsili var. O, yaşadığı şəhərdə fabrikdə işləmək istəyir və bu məqsədlə işəgötürmə agentliyinə müraciət edir. Bu agentlik xarici alıcılar üçün tekstil istehsal edən böyük bir tikiş fabrikinin sub-kontraktorudur. Lihn müsahibədən keçir və tezliklə işə dəvət olunur. Agentlik ondan işəgötürmə xidmətinin haqqı olaraq 200,000 Donq ödəməyi və bundan əlavə olaraq 1 million Donq depozit, işdən çıxdıqdan sonra geri almaq şərtilə, qoymağı tələb etdi. Linhin bu qədər pulu yox idi və bu təqdirdə agentlik ondan şəxsiyyəti müəyyən edən sənədlərini bu pulları ödəyib qurtarana qədər agentlikdə saxlamağı tələb etdi. Linh tələb edilən kimi də etdi və tezliklə fabrikdə işləməyə başladı. Amma əmək şəraitinin onun əmək müqaviləsində göstəriləndən xeyli dərəcədə fərqli olduğu ortaya çıxdı. Onun iş günləri çox uzun idi. Nəzarətçi qadınlara hamam otaqlarından lazım olduğu qədər istifadə etməyə imkan vermirdi və işçilərə çoxlu təzyiq edirdi. Bir aydan sonra Linh agentliyə şikayət elədi və işdən çıxmaq istədiyini bildirdi. Agentlik onun sənədlərini qaytarmaqdan imtina edərək onun borcunu ödəməsi üçün kifayət qədər işləmədiyini söylədi. Linh fabrikə geri döndü və ikinci aydan sonra yenidən işdən çıxmaq istədiyini bildirdi. Bu dəfə agentlik onun sənədlərini qaytardı, çünki o, artıq işəgötürmə haqqını ödəmişdi, amma bu dəfə agentlik Linhin əvvəllər ödədiyi depozitin yarısını qaytarmaq istəmədi. Bu zaman Linh bu şərtləri qəbul etmədi və əmək müfəttişliyinə gedərək şikayət ərizəsi yazdı.

## Kazus 2

Den xüsusi peşəsi olmayan bir kəndlidir və o, Çinin ucqar hissəsində yerləşən kəndini tərk edərək yaxınlıqdakı şəhərə iş axtarmaq üçün gəlir. Ona kimsə demişdi ki, tikinti şirkətləri daim müvəqqəti işçilər axtarırlar və ona belə işçilərin hər gün işə qəbul edildiyi yerin adını vermişdilər. Den tezliklə bir həftəlik işə götürüldü və inşaatda işləməyə başladı. Ona çox ağır iş tapşırılmışdı və onu hər zaman ələ salırdılar. O, gecə gündüz işləməli idi və beləliklə həftənin sonunda çox yorulmuşdu. Onun əmək müqaviləsi yox idi və belə işləməsinin qanuni olub-olmamasından əmin deyildi, amma o, bunları aydınlaşdırmağa cürət etmirdi. Həftənin sonunda ona cəmi 100 RMB ödənildi və bu da onun iş yoldaşlarının aldığında xeyli az idi. O, şikayət etmək istədi amma işəgötürən bildirdi ki, ona bundan artıq pul verilməyəcək çünki o, heç bir peşəsi olmayan kəndlidir.

## Kazus 3

Manuel Braziliyanın Paranın Cənubu Ştatında, Amazon cəngəlliyinin dərinliklərində, maldarlıq fermasında köləliyə oxşar şəraitdə işləyirdi. O, həftənin 7 günü işləyir, heyvanların içdiyi sudan içir, maaş almır, yaşamaq üçün normal şəraitə malik deyil və üstündə uzanıb yatdığı bir dəst paltara malikdir. Ərazini silahlı şəxslər qoruyur və onlar heç kimin buranı tərk etməsinə imkan vermirdilər. Onun maaşını almaq vaxtı çatanda ona dedilər ki, o, qazancını "yemişdir." Belə ki, o, yemək, qalmaq, hətta işini yerinə yetirmək üçün istifadə etdiyi alətlər üçün pul ödəməli imiş. Ərazidəki yeganə mağazanın sahibi elə onun işəgötürəni idi və burada qiymətlər həddən artıq baha idi. O, maaşını tələb edəndə ona bildirildi ki, pul qazanmaq üçün qalıb işləməlidir. Bu minvalla dörd il yaşadıqdan sonra onu Səyyar Əmək Müfəttişliyi Dəstəsi azad etmişdi.

## Kazus 4

Portuqaliya Baş Əmək Müfəttişliyi (BƏM) çox ciddi bir vəziyyəti araşdırmalı idi: Sao Tome və Prinsipdən olan bir işçi fermada işləyərək qeyri-insani yerdə yaşamağa vadar edilmişdi. O, daim fermanın qadın sahibi tərəfindən silahla hədələnirdi amma buna baxmayaraq hökumət idarəsinə mesajını çatdıra bildi. Sonda nəhayət Milli Respublika Qvardiyası və Xaricilər və Sərhəd Xidməti onu xilas etdi. Hazırda BƏM həmin ərazidə başqa bir işçi ilə əlaqədar oxşar halı araşdırır. Qadın odlu silahla işçiləri hədələyərək onları işləməyə məcbur edir və kiçik evdə yaşamağa vadar edir; onlara maaş ödənilmir və bəzən heyvanlarla birgə yaşamağa məcbur edilirlər.

## Kazus 5

Frankfurt Mayn şəhərində yerləşən Alman əmək idarəsi Litvadan olan dörd qadının istismar edici əməyə cəlb olunduğu gizli tikiş əməliyyatı barədə məlumat verdi. Müfəttişlər video kameralarla və dəmir qapılarla müdafiə olunan gizli emalatxana tapdılar. Əmək müfəttişləri özlərini müştəri kimi qələmə verərək içəri daxil ola bildilər və orada 15-20 ədəd tikiş maşını və qorxu içində olan 4 litvalı qadını tapdılar. Uzun sürən müsahibə zamanı qadınlar özlərinin əmək şəraitini belə izah etdilər: onlar gün ərzində 12-15 saat işləməli idilər, bunun müqabilində onlara altı həftə üçün 400 evro ödənəcəkdi, bir saat üçün 1.25 – 1.50 euro. Qadınlar emalatxanadan kənara buraxılmırdılar. İki həftədən bir onlara nəzarətçi olmadan bazarlıq etməyə icazə verirdilər. Onlar iddia edirdilər ki, onlar əslən İordaniya vətəndaşı olan iş sahiblərindən qorxurdular. Emalatxana bir neçə ildir fəaliyyət göstərir və orada 10-12 qeyri-qanuni işçi çalışır və bu işçilər tez-tez dəyişdirilir. İstehsalın ümumi dəyəri 1 milyon evroya çatır: heç bir işçi qeydiyyata alınmayıb. Əmək müfəttişi qeyd edir ki, bu onun yeddi illik peşəkar iş təcrübəsində rastlaşdığı ən ciddi insidentdir və çox nadir hallarda zərərçəkənlər əmək müfəttişləri ilə belə yaxın əməkdaşlıq edirlər. Buna baxmayaraq, bu kazus immiqrasiya orqanlarına bildirilən kimi, zərərçəkənlər ölkəni tərk etmək məcburiyyətində qaldılar.

## Kazus 6

Landilani Zambiyanın Çipata əyalətinin Muşoro kəndindən, 7 uşaqlı ailədə böyümüş 22 yaşlı bir kişidir. Landilaninin 19 yaşı olanda, atası onu Çipatadan tanıdığı və kəndlərinə zərgərlik daşı almağa gələn bir iş qadının yanında işə düzəltdi. Çipataya çatandan sonra işə götürən və Landilani razılaşdılar ki, onun maaşı ayda 150,000 K olacaqdır. O, yeməyini yediyi restoranda yerləşdirildi. Onun iş vəzifələrinə ərazini süpürmək, təmizləmək, qabları yumaq, gülləri sulamaq, fermada işləmək, kərpic kəsmək və onları bişirməkdən ibarət idi. O, Çipatada üç ay işlədi amma hərdən bir paltar üçün aldığı 10000 K puldan başqa maaş almadı. Bir müddət sonra işə götürənin bacısı oğlu onu bu işdən çıxmağa və onun yanında Katetedə ayda 350000 K maaşa bilyard stollarına nəzarətçi işləməyə təhrik etdi. O, Çipatadakı iş yerindən qaçaraq bacı oğlunun yanında gecə klubunda işləməyə başladı. O, gecə klubunda iki il maaş almadan işlədi. Landilaninin işi sahibkarlar işə gələndə başlayır və gecə gec saatlara kimi davam edirdi. Bəzən insanlar bilyard oynayarkən o, stuldaca yuxlayırdı. Bir gündə onun əlinə 150000-dən 180000-dək nəğd pul gəlirdi. Landilani öz işəgötürənindən onun maaşının verilməsini tələb edəndə ona dedilər ki, o, işini dayandıra bilər, çünki onun yerinə başqa adam götürülüb və ona təklif etdilər ki, onu kəndə apara bilərlər. Dolana bilmək üçün Landilani ara işləri görməyə başladı və dostlarından kömək istədi. O, həmçinin öz geri qalan maaşını ala bilmək üçün polisə rüsum da ödəməli idi. Amma polis ilə işə götürən dost olduqlarından bu iş də alınmadı. İşəgötürən iddianın ləğv olunması üçün cəmi 100000 K ödədi. Landilani üçün təəssüf edici o oldu ki, həmin polis işçisi Katetedə çoxlu adamı aldadaraq şirkətin ödədiyi pulların hamısını götürərək qaçıb getdi.



## Kazus 7

N Musalli (Müsəlman Şeyxi) qadındır, təhsili yoxdur, evlidir və Pakistanda Z.-in villasında çalışır, Z N-in evinin sahibidir, baxmayaraq N evi özü tikmişdir. Evdə elektrik enerjisindən başqa heç bir komunal vasitələr yoxdur. Onun dörd qızı və iki oğlu vardır. Onun əri M də Z-in evində çalışır. Onların iki qızı Multanda yaşayır. N və onun qızı T, G-in evində döşəmələri təmizləyir, paltarları və qabları yuyur. Onun əri heyvanlara baxır oğlanları isə tarlaları suvarırlar. Onlar səhər saat 5-dən axşam saat 8-dək işləyirlər. Onların öz evləri villanın düz yanındadır buna görə də iş görmək lazım gələndə onlar tez bir zamanda gələ bilirlər. Z-in arvadı çox qəddardır və onları ayaqqabıları ilə döyür. Onlar döşəmələri təmizləyərkən o, onların başlarının üstündə durur, ayaqqabıları ilə onları vuraraq gileylənir ki, onlar yavaş işləyirlər və yaxud yaxşı işləmirlər. O, həmçinin öz əri və oğlanlarını da döyür amma N bunun səbəbini bilmir. N bura altı il öncə gəlmişdir. Bundan əvvəl o, bir kənddə yaşayırdı, və burada torpaq sahibi Çaudri ona 80000 rupi borc vermişdi ki, N oğlu və qızını evləndirsin. Bu borcu ödəmək çox çətin idi və ona görə də yerdə qalan 60000 rupiyə yenidən "faiz hesablandı." Belə ki, Z bu məbləği dostu olan Çaudriyə ödədi. Əslində bu o demək idi ki, Z borcu ödəməklə onları pul ilə aldı və onlar gəlib onun üçün işləməli oldular. T deyir ki, əgər təmizləmə zamanı gül qabı sınırsa, və onun qiyməti 25 rupidirsə, onda onun dəyəri 500 rupi hesablanır və borcun üstünə gəlinir. Əgər heyvan ölürsə, onun da dəyəri borcun üstünə gəlinir. Beləliklə borc 60000 rupidən 300000 rupiyədək artır. Hər xarab və ya məhv olan şeyə görə məvacibdən kəsilməsi sistemi parçi çarhana adlanır. Kompensasiya yolu ilə hər bir adama 200 rupi və bir kisə buğda verilir. Onlar buğdanı götürmürlər və bu yolla borclarını azaltmaq istəyirlər. Burada böyrək və göz problemləri çoxalıb. T ərə getmişdi amma o, boşanmışdır və buna görə o da geri gəlib. Z-in içkili olan kişi dostları vardır və onlar Musalli qızları haqda fikirləşmirlər.

# Əlavə 3: Hüquqi Sənədlər

## A – Beynəlxalq Əmək Təşkilatının "İcbari əmək haqqında" Konvensiyası, No. 29 (1930) – çıxarışlar

### Maddə 1

1. Beynəlxalq Əmək Təşkilatının bu Konvensiyasını ratifikasiya edən hər bir Üzvü icbari və ya məcburi əməyi ləğv etməyi və onun hər hansı bir formasına müraciət etməməyi öhdəsinə götürür.

### Maddə 2

1. Bu Konvensiyanın məqsədləri üçün *icbari və ya məcburi əmək,* hər hansı bir cəza və ya təhdid altında və həmin şəxsin könüllü təklifinin əsasında olmayan, hər hansı bir şəxsdən alınan hər hansı bir iş və ya xidmət deməkdir.

2. Buna baxmayaraq, bu Konvensiyanın məqsədləri üçün *icbari və ya məcburi əmək,* anlayışına aşağıdakılar daxil deyil –

    (a) icbari hərbi xidmət qanunları əsasında sırf hərbi xarakterli hər hansı bir iş və ya xidmət;

    (b) tam özünüidarəetmə ölkə vətəndaşlarının normal vətəndaş öhdəlikləri hissəsini təşkil edən hər hansı bir iş və ya xidmət;

    (c) məhkəmə tərəfindən şəxsin məhkum edilməsi nəticəsi olan hər hansı bir iş və ya xidmət, hansı ki, dövlət orqanının nəzarəti və rəhbərliyi altında həyata keçirilir və özəl şəxslərə, şirkətlərə və qurumlara muzdlu və ya yerləşdirilmiş deyil;

    (d) fövqəladə hallarda məcbur edilən hər hansı bir iş və ya xidmət, yəni, müharibə və ya fəlakət və ya fəlakət təhlükəsi, daşqın, aclıq, zəlzələ, kəskin epidemik və ya epizootik xəstəliklər, heyvan, həşərat və ya bitki zərərvericilərin basqını və ümumiyyətlə bütün əhalinin və ya onun bir hissəsinə olan təhlikə yaradan hər hansı bir hal;

    (e) bir növ kiçik kommunal xidmətlər, hansı ki, icma üzvləri tərəfindən bilavasitə icmanin maraqlarında olan, və ona görə də icma üzvlərin normal vətəndaş öhdəlikləri sayila bilən, və icma üzvləri və ya onların birbaşa nümayəndələrin bu cür xidmətlərin ehtiyac olduğuna məsləhətləşmə hüququ şərti ilə.

### Maddə 25

Məcburi və ya icbari əməyin qanunsuz vadar edilməsi cinayət kimi cəzalandırılacaq, və bu Konvensiyanı ratifikasiya edən hər hansı bir Üzvün öhdəliyidir ki, qanunda təmin edilən cəzalar olduqca kifayət olsunlar və ciddi icra edilsinlər.

## B – Birləşmiş Millətlər Təşkilatının Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Konvensiyasını tamamlayan İnsan Alverinin, Xüsusən Qadın və Uşaq Alverinin Aqrşısının Alınması, Aradan Qaldırılması və Cəzalandırılması Haqqında Protokol – çıxarışlar

**Maddə 2: Məqsədlər**

Bu Protokolun məqsədi aşağıdakılardan ibarətdir:

(a) Qadınlara və uşaqlara xüsusi diqqət yetirərək, insan alverinin qarşısının alınmasından və onunla mübarizə etməkdən;

(b) Bu cür alverin qurbanları olan şəxslərə, onların insan hüquqlarına tam hörmət bəsləyərək müdafiə və yardım etməkdən;

(c) Bu məqsədlərin gerçəkləşməsində İştirakçı dövlətlər arasında əməkdaşlığı təşviq etməkdən ibarətdir.

### *Maddə 3. Anlayışlar*

Bu Protokolun məqsədləri üçün:

a) «insan alveri» dedikdə, güc tətbiq etmək hədəsi ilə və ya güc tətbiq etməklə və ya məcburetmə, oğurlama, dələduzluq, aldatma, hakimiyyətdən və ya vəziyyətin zəifliyindən sui-istifadə etməklə, yaxud da digər şəxsə nəzarət edən şəxsin razılığını almaq üçün ödəniş və ya mənfəət şəklində rüşvət verməklə insanların istismar məqsədi ilə cəlb edilməsi, daşınması, təhvil verilməsi, gizlədilməsi və ya alınması başa düşülür. İstismar ən azı digər şəxslərin fahişəliyinin istismarını və ya cinsi istismarın digər formalarını, icbari əməyi və ya xidmətləri, köləliyi, köləliyə bənzər adətləri, asılılıq vəziyyətini və ya orqanların çıxarılmasını nəzərdə tutur;

b) əgər (a) yarımbəndində göstərilən təsir vasitələrindən hər hansı biri istifadə edilibdirsə, bu maddənin (a) yarımbəndində adı çəkilən insan alveri qurbanının planlaşdırılmış istismara razılığı nəzərə alınmır;

c) uşağın istismar edilməsi məqsədi ilə cəlb edilməsi, daşınması, təhvil verilməsi, gizlədilməsi və ya alınması, hətta bu maddənin (a) yarımbəndində göstərilən hər hansı bir təsir vasitələrinin istifadəsi ilə bağlı olmadığı təqdirdə belə «insan alveri» hesab edilir;

d) «uşaq» dedikdə, 18 yaşına çatmamış istənilən şəxs başa düşülür.

**Maddə 6. İnsan alveri qurbanlarına yardım və onların müdafiəsi**

1. Hər bir İştirakçı dövlət lazım gəldikdə və onun öz daxili qanunvericiliyinin imkan verdiyi həcmdə, o cümlədən, bundan savayı, bu cür alverə aid olan icraatın məxfiliyini təmin etməklə, insan alveri qurbanlarının şəxsi həyatının və şəxsiyyətinin müdafiəsini təmin edir.

2. Hər bir İştirakçı dövlət təmin edir ki, onun daxili hüquqi və ya inzibati sistemi insan alveri qurbanlarına lazım gəldikdə:
   (a) müvafiq məhkəmə və inzibati araşdırma haqqında məlumatın təqdim edilməsinə;
   (b) müdafiənin hüquqlarına xələl gətirməyən, müvafiq cinayət icraatı mərhələlərində cinayəti törətmiş şəxslər barəsində onların fikir və qorxularının izah edilməsinə və baxılmasına imkan verən yardımın göstərilməsinə imkan verən tədbirləri nəzərdə tutsun.

3. Hər bir İştirakçı dövlət insan alveri qurbanlarının fiziki, psixoloji və sosial reabilitasiyasının təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi mümkünlüyünü, o cümlədən, lazım gəldikdə, qeyri-hökumət təşkilatları, digər müvafiq təşkilatlar və vətəndaş cəmiyyətinin digər elementləri ilə əməkdaşlıq edərək və xüsusilə də:
   (a) lazımi sığınacağın verilməsini;
   (b) insan alveri qurbanlarına aydın olan dildə konsultativ yardımın və məlumatın, xüsusən də onların hüquqlarına dair yardımın və məlumatın təqdim edilməsini;
   (c) tibbi, psixoloji və maddi yardımın göstərilməsini;
   (d) məşğulluq, təhsil və mütəxəssis hazırlığı sahəsində imkanların verilməsini nəzərdə tutan tədbirlərin həyata keçirilməsi mümkünlüyünü müzakirə edir.

4. Hər bir İştirakçı dövlət bu maddənin müddəalarını tətbiq edən zaman insan alveri qurbanlarının yaşını, cinsini və xüsusi tələbatlarını, xüsusilə də uşaqların xüsusi tələbatlarını, o cümlədən lazımi sığınacaq, təhsil və qayğıya münasibətdə tələbatlarını nəzərə alır.

5. Hər bir İştirakçı dövlət insan alveri qurbanlarının öz ərazisində olan müddət ərzində onların fiziki təhlükəsizliyini təmin etməyə çalışır.

6. Hər bir İştirakçı dövlət təmin edir ki, onun daxili hüquqi sistemi insan alveri qurbanlarına dəymiş zərərə görə kompensasiyanın alınmasını mümkün edən tədbirlər nəzərdə tutsun.

## Maddə 9. İnsan alverinin qarşısının alınması

1. İştirakçı dövlətlər birgə əsaslarla:
   (a) İnsan alverinin qarşısının alınması və onunla mübarizə; və
   (b) İnsan alveri qurbanlarının, xüsusilə də qadınların və uşaqların yenidən qurbana çevrilməkdən (reviktimizasiyadan) müdafiə olunması məqsədi ilə siyasət, proqramlar və digər tədbirlər işləyib hazırlayır və tətbiq edirlər.

2. İştirakçı dövlətlər insan alverinin qarşısının alınmasına və onunla mübarizəyə yönələn tədqiqatların keçirilməsi, informasiya kampaniyalarının, o cümlədən həmin kampaniyaların kütləvi informasiya vasitələrində keçirilməsi, eləcə də sosial-iqtisadi təşəbbüslərin həyata keçirilməsi kimi tədbirlərin görülməsinə çalışırlar.

3. Bu maddəyə uyğun olaraq işlənib hazırlanan və qəbul edilən siyasət, proqramlar və digər tədbirlər, lazımi hallarda, qeyri-hökumət təşkilatları, digər müvafiq təşkilatlar və vətəndaş cəmiyyətinin digər elementləri ilə əməkdaşlığı özündə əks etdirə bilər.

4. İştirakçı dövlətlər, insan alveri nöqteyi-nəzərindən insanların, xüsusilə də qadın və uşaqların zəifliyini şərtləndirən yoxsulluq, inkişafın aşağı səviyyədə olması və bərabər

imkanların olmaması kimi amillərin təsirinin azaldılmasına yönələn tədbirlər qəbul edir və ya təkmilləşdirirlər, o cümlədən bunları ikitərəfli və ya çoxtərəfli əməkdaşlıqla həyata keçirirlər.

5. İştirakçı dövlətlər insanların, xüsusilə də qadın və uşaqların istismarına (onun bütün təzahürlərinə — çünki bu, insan alverinə gətirib çıxarır) səbəb olan tələbata qarşı yönələn, məsələn, təhsil və mədəniyyət sahələrində və ya sosial sahələrdə qanunverici və ya digər tədbirlər qəbul edir və ya təkmilləşdirirlər, o cümlədən bunları ikitərəfli və ya çoxtərəfli əməkdaşlıqla həyata keçirirlər.

## C – BƏT-in Əməyin Təftişi Haqqında Konvensiyası No. 81 (1947) - çıxarışlar

**Maddə 2**

1. Sənaye müəssisələrində əmək müfəttişliyi sistemi, əmək müfəttişləri tərəfindən əmək şəraitinə və işçilərin iş prosesində onların mühafizəsinə dair qanunvericilik müddəalarının tətbiqinin təmin edilməli olduğu bütün müəssisələrə şamil edilir.

2. Milli qanunvericilik mədən sənayesi və nəqliyyat müəssisələrini və ya bu müəssisələrin bir hissəsini həmin Konvensiyanın qüvvəsi altından çıxara bilər.

**Maddə 3**

1. Əmək müfəttişliyi sisteminin vəzifəsinə aşağıdakılar daxildir:

   (a) işçilərin əmək şəraiti və iş prosesində onların təhlükəsizliyi sahəsində qanunvericilik müddəalarının, məsələn: iş gününün davamiyyəti, əmək haqqı, əməyin təhlükəsizliyi, səhiyyə, maddi rifah, uşaqların və yeniyetmələrin əməyindən istifadə olunması və əmək müfəttişlərinin göstərilən müddəaların tətbiqini təmin etməli olduqları dərəcədə başqa belə məsələlər üzrə müddəaların tətbiqinin təmin edilməsi;

   (b) qanunvericilik müddəalarına riayət edilməsinin daha səmərəli vasitələri haqqında texniki informasiya və məsləhətlər ilə sahibkarların və işçilərin təmin edilməsi;

   (c) mövcud qanunvericilik müddəalarının qüvvəsi altına düşməyən fəaliyyətsizlik və ya sui-istifadə faktlarının səlahiyyətli hakimiyyət orqanının nəzərinə çatdırılması.

2. Əgər əmək müfəttişlərinə başqa funksiyalar tapşırılarsa, bu funksiyalar onların əsas funksiyalarının həyata keçirilməsinə mane olmamalı və müfəttişlərin sahibkarlar və işçilərlə münasibətlərində onlara zəruri olan nüfuz və qərəzçiliklərinə heç bir vəchlə zərər toxundurmamalıdır.

**Maddə 5**

Səlahiyyətli hakimiyyət orqanı aşağıdakılara yardım etmək üçün müvafiq tədbirlər görür:

(a) təftiş xidmətləri ilə oxşar fəaliyyəti həyata keçirən digər hökumət xidmətləri, habelə dövlət idarələri və xüsusi idarələr arasında səmərəli əməkdaşlığa; və

(b) əmək müfəttişliyinin mütəxəssiləri ilə sahibkarlar və işçilər və ya onların təşkilatları arasında əməkdaşlığa.

**Maddə 6**

Müfəttişliyin heyəti dövlət qulluqçularından ibarətdir. Onların statusu və iş şəraiti vəzifə sabitliyini təmin edir və onlar hökumətdə hər hansı dəyişikliklərdən və ya hər hansı lazımsız xarici təsirdən asılı olmurlar.

**Maddə 9**

Təşkilatın hər üzvü səhiyyəyə və işçilərin iş vaxtı təhlükəsizliyinə dair qanunvericilik müddəalarının tətbiqini təmin etmək, habelə tətbiq olunan vasitələrin təsiri, istifadə olunan materialların və əmək metodlarının işçilərin sağlamlıq vəziyyətinə və təhlükəsizliyinə təsiri haqqında məlumat almaq məqsədi ilə lazımi tədbirlər görür ki, ixtisaslı ekspertlər və mütəxəssislər, o cümlədən səhiyyə, mexanika, elektrik və kimya mütəxəssisləri müfəttişliyin işinə milli şəraitə daha uyğun olan formalarda cəlb edilsinlər.

**Maddə 10**

Əmək müfəttişlərinin sayı təftiş xidmətinin funksiyalarının səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün kifayət qədər olmalıdır. O, aşağıdakıları nəzərə almaqla təyin edilir:

a. müfəttişlərin yerinə yetirməli olduqları vəzifələrin əhəmiyyəti və o cümlədən —
   (i) müfəttişliyin nəzarəti altına düşən müəssisələrin sayı, xarakteri, ölçüsü və harada yerləşməsi;
   (ii) həmin müəssisələrdə işləyən işçilərin sayı və kateqoriyaları; və
   (iii) tətbiqini təmin etməli olduqları qanunvericilik müddəalarının sayı və mürəkkəbliyi;

(c) müfəttişlərin ixtiyarına verilən maddi vəsait; və
(d) təftiş səfərlərinin daha səmərəli olması üçün əməli şərait.

**Maddə 11**

1. Səlahiyyətli hakimiyyət orqanı müfəttişlərin sərəncamında aşağıdakıların olması üçün zəruri tədbirlər görür –

   a. təftiş xidmətinin müvafiq surətdə təchiz edilmiş və bütün əlaqədar şəxslər üçün açıq olan yerli büroları;
   b. müvafiq ictimai nəqliyyat vasitələri olmadığı halda onların funksiyalarının həyata keçirilməsi üçün zəruri olan nəqliyyat vasitələri.

2. Səlahiyyətli hakimiyyət orqanı əmək müfəttişlərinə bir yerdən başqa yerə getmək və funksiyalarını həyata keçirmək üçün lazım olan bütün əlavə xərclərin haqqını ödəmək məqsədi ilə zəruri tədbirlər görür.

**Maddə 12**

1. Səlahiyyətlərini təsdiq edən sənədlərlə təchiz edilmiş əmək müfəttişlərinin aşağıdakı hüquqları vardır:

a. müfəttişliyin nəzarət dairəsinə daxil olan hər hansı müəssisəyə əvvəlcədən xəbərdarlıq etmədən və günün istənilən vaxtında maneəsiz girmək;
b. hər hansı bir binanın müfəttişliyin nəzarət dairəsinə düşdüyünü hesab etmək üçün kifayət qədər əsas olduqda, gündüz vaxtı bütün belə binalara daxil olmaq; və
c. qanunvericilik müddəalarına lazımi qaydada riayət edildiyinə əmin olmaq üçün zəruri bildikləri hər hansı yoxlamanı, nəzarəti və araşdırmanı həyata keçirmək və o cümlədən –
   (i) təklikdə və ya şahidlərin yanında qanunvericilik müddəalarının tətbiqinə dair bütün sahələr üzrə sahibkara və ya müəssisənin heyətinə suallar vermək;
   (ii) əmək şəraiti məsələləri üzrə qanunvericilikdə doldurulması göstərilmiş hər hansı kitabın, reyestrin və ya sənədlərin qanunvericilik müddəalarına uyğunluğunu yoxlamaq, surətini və ya ayrı-ayrı yerlərindən çıxarışlar etmək məqsədi ilə onları tələb etmək;
   (iii) qanunvericilik müddəalarında nəzərdə tutulduğu kimi elanların asılmasını tələb etmək;
   (iv) istifadə olunan və ya emal olunan materialların və maddələrin nümunələrini analiz üçün götürmək və ya özü ilə aparmaq, bu şərtlə ki, materialların və ya maddələrin həmin məqsədlə götürüldüyü və aparıldığı haqqında sahibkar və ya onun nümayəndəsi xəbərdar edilmiş olsun.

2. Təftiş səfəri zamanı müfəttiş, gəlişinin bildirilməsinin nəzarətin səmərəliliyinə zərər yetirəcəyini hesab etmirsə, gəldiyini sahibkara və ya onun nümayəndəsinə bildirir.

**Maddə 17**

1. Həyata keçirilməsi əmək müfəttişlərinə həvalə olunmuş qanunvericilik müddəalarını pozan və ya onlara riayət etməkdən boyun qaçıran şəxslər əvvəlcədən xəbərdarlıq edilmədən dərhal məhkəmə təqibinə məruz qalırlar. Lakin milli qanunvericilik, vəziyyətin düzəldilməsi və ya nöqsanların qarşısını alan tədbirlərin görülməsi üçün əvvəlcədən xəbərdarlıq edilməsi lazım gələn hallar barədə istisnalar nəzərdə tuta bilər.

2. Əmək müfəttişləri məhkəmə təqibinə başlamaq və ya onun başlanmasını tövsiyə etmək əvəzinə, xəbərdarlıq edib-etməmək və ya məsləhət verib-verməmək məsələsini özləri həll etmək hüququna malikdirlər.

# Əlavə 4: Digər mənbələr

## 1. BƏT resursları

- **BƏT:** *Əmək Müfəttişliyi. Beynəlxalq Əmək Konfransının 96-cı Sessiyası üçün BƏT-in Sorğusu,* Cenevrə, 2006

  Sorğu aşağıdakı sənədlərlə bağlı hesabatların toplusudur: Əmək MüfəttişliyiKonvensiyası, 1947 (No. 81), və Əmək Müfəttişliyi Konvensiyasına (1947) əlavə olunan 1995-ci il Protokolu; Əmək Müfəttişliyi Rekomendasiyası, 1947 (No. 81), Əmək Müfəttişliyi(Mədən və Nəqliyyat) Rekomendasiyası, 1947 (No. 82), Əmək Müfəttişliyi(Kənd Təsərrüfatı) Konvensiyası, 1969 (No. 129), və Əmək Müfəttişliyi(Kənd Təsərrüfatı) Rekomendasiyası, 1969 (No. 133).

- **BƏT:** *Əmək Müfəttişləri üçün Vəsait. Nümunəvi icra siyasəti, təlim və əməliyyatlar təlimatı, etik davranış kodeksi,* Budapeşt, 2006

  Bu vəsait xidmətin istənilən səviyyəsində çalışan əmək müfəttişlərinə kömək üçün dizayn olunmuşdur və əmək müfəttişlərinə onların gündəlik işlərində yardım etmək məqsədi daşıyır.

- **BƏT:** *Uşaq Əməyinə Qarşı Mübarizə: Əmək Müfəttişləri üçün Təlimat Kitabı,* Cenevrə, 2002

  Bu kitab əmək əüfəttişləri üçün nəzərdə tutulub və təhlükəli və istismaredici uşaq əməyini başa düşmək və ona qarşı mübarizə aparmaq barədə məlumat verir. Təlimat istismar və riskləri necə qiymətləndirmək, hər hansı bir vəziyyəti kompleks şəkildə necə dəyərləndirmək, və konkret tədbirlərə yönəlmiş qərarları verməyə dair təkliflər verir.

- **BƏT:** *Inteqrasiya edilmiş Əmək MüfəttişliyiTəlimi Sistemi (ILITS),* Cenevrə, 2006

  ILITS hər bir milli əmək müfəttişliyinin özünə xas təlim sistemi və modulları yarada bilməsi üçün bir çərçivə təqdim edir,və bunlar yerli ehtiyaclara və mövcud resurslara tam adaptasiya edilmişdir.

- **BƏT:** *İnsan Alveri və Məcburi Əməyin İstismarı: Qanunvericilik və Qanunların Tətbiqinə dair Təlimat,* Cenevrə, 2005

  Bu hüquqi təlimat qanunvericilər və hüquq mühafizə orqanları üçün (həm polis həm də əmək müfəttişləri) dizayn olunub və insan alveri ilə bağlı beynəlxalq standartları başa düşmək və icra etmək və müvafiq tədbirlər görmək üçün onlara praktiki kömək etmək məqsədi daşıyır

- **BƏT:** *Məcburi əmək üçün insan alveri: miqrant işçilərin işə götürülməsinə necə nəzarət etməli,* Cenevrə, 2005

  Bu təlim kitabı özəl işə götürmə agentlikləri və digər işə düzəltmə agentliklərinə nəzarət məsuliyyəti daşıyan əmək müfəttişləri və digər hüquq mühafizə orqanları üçün dizayn olunub

- **BƏT:** *Məcburi əməyə qarşı qlobal alyans. BƏT-in İş Yerində Fundamental Prinsiplər və Hüquqlar Deklarasiyasına çərçivəsində Qlobal Hesabat,* Cenevrə, 2005

  Bu BƏT-in Məcburi Əməyə dair Qlobal Hesabatının ikincisidir və burada dünyada məcburi əməyin müxtəlif formaları və onlara qarşı mübarizə vasitələri haqda məlumat verilir. Ən əsası bu hesabat məcburi əməyə qarşı mübarizədə qlobal alyans qurmağa çağırır və bu mübarizə o vaxtdan formalaşmağa başlamışdır.

- **BƏT:** *İnsanların Alverinə Qarşı Mübarizə,* Cenevrə, 2008 Bu sənəd qısaca olaraq BƏT-in insan alverinə qarşı mübarizəyə yanaşması və BƏT-in rəhbərlik etdiyi strategiyalar barədə məlumat verir.

## 2. BMT Hesabatları

- **Birləşmiş Millətlər Təşkilatı Narkotiklər və Cinayətlər İdarəsi (UNODC)** *İnsan Alverinə Qarşı Mübarizəyə dair Vəsait,* Nyu York, 2006

  Bu Vəsait aşağıdakı məsələlərə dair təkliflər verir: müxtəlif hökumət və digər müvafiq orqanlara insan alveri problemini qabaqlamaq və ünvanlamaq, insan alveri qurbanlarını müəyyən etmək və onlar üçün effektiv müdafiə və yardım təmin etmək, insan alverinə qarşı mübarizədə bir-biri ilə əməkdaşlıq çərçivəsində işləmək və ona qarşı effektiv tədbirlər görmək məqsədilə hərtərəfli strategiyanın elementlərinin hazırlanmasında yol göstərmək.

- **BMT İnsan Haqqları üzrə Ali Komissarlığı (BMT İHAK),** *İnsan Haqqları və İnsan Alverinə dair Tövsiyyə Olunan Prinsip və Təlimatlar,* Nyu York, 2002.

  BMT İHAK alverə cəlb olunmuş insanların qorunması və insan alverinin qarşısının alınması üçün praktiki və hüquqlara əsaslanan strateji təlimat vermək məqsədilə bu Təlimatları hazırlamışdır. Bundan əlavə bu təlimatlar milli, regional və beynəlxalq səviyyədə insan alverinə qarşı qanunlar, siyasətlər və müdaxilələrdə insan haqqlarına əsaslanan perspektivin inteqrasiya olunması məqsədini də daşıyır. Təlimatlar və onların icrası Palermo Protokolu çərçivəsində daha geniş formada nəzərə alınacaqdır.

## 3. Digər müvafiq mənbələr

- **ABŞ Dövlət Departamenti:** *İnsan Alverinə dair Hesabat 2008* http://www.state.gov/g/tip/rls/tiprpt/2008/

  ABŞ Dövlət Departamentinin illik İnsan Alveri Hesabatı dünya üzrə hökumətlərin insan alverinin ən ağır formalarına qarşı mübarizəsinə dair ən geniş əhatəli qlobal hesabatlardan biridir. Burada hər bir hökumətin insan alverinə qarşı qanunun tətbiqi, zərərçəkənlərin qorunması və alverin qarşısının alınmasına dair tədbirləri haqda məlumat verilir. Hər bir mətn ölkənin reytinq cədvəlində (Sıra 1, Sıra 2, Sıra 2 Nəzarət Siyahısı, Sıra 3) yer alma səbəbini açıqlayır.

- **Miqrasiya Siyasəti Beynəlxalq Mərkəzi (ICMPD):** *Sərhəd Hüquq Mühafizə Xidməti Zabitləri üçün Anti- İnsan Alveri Təlimi: Təlim Vəsaiti, Vyana,* 2006.

  Bu təlim materialı bu sahədə ixtisaslaşmayan, amma öz vəzifə borclarını yerinə yetirərkən insan alveri halları ilə rastlaşa bilən işçi heyəti üçün müasir və asan

istifadə oluna bilən təlim modulunu təqdim edir. Təlim modulu “Təlim Vəsaiti” və “Əlavə Oxu” hissələrindən ibarətdir.

- **BMqT:** *İnsan Alveri Qurbanlarına Birbaşa Yardıma dair BMqT-in Təlimat Kitabı, Cenevrə,* 2007

  Bu təlimat kitabı insan alveri qurbanlarına ilkin kontaktdan başlamış fərdlərin cəmiyyətə effektiv inteqrasiya olunmasınadək vacib və kompleks yardım məsələlərinin effektiv təmin olunmasına dair təlimat və məsləhət verir.

## 4. Əməkdaşlıq müqavilələri

- **Tailand və Kambociya (İkitərəfli müqavilə)**

  Tailand və Kambociya arasında uşaqlar və qadınların alverinin aradan qaldırılması və alver qurbanlarına yardım edilməsi haqqında ikitərəfli əməkdaşlığa dair Anlaşma Memorandumu 2003-cü ildə imzalanmışdır. Memoranduma əsasən hər iki hökumət tərəfindən qabaqlama, müdafiə, istintaq, geri göndərmə və re-inteqrasiya sahələrində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur.

- **Bolqarıstan (Milli səviyyədə müxtəlif tərəfdaşlar)**

  İnsan alverinə qarşı birgə və əlaqələndirilmiş hüquq mühafizə tədbirləri həyata keçirmək üçün 2001-ci ildə Milli İnsan Alveri İşçi Qrupu yaradılmışdır. Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Milli Xidmətinin rəhbərliyi altında İşçi Qrupu Milli Polis Xidməti, Milli Sərhəd Xidməti, Milli Jandarma və Milli İnterpol Burosundan ibarətdir. Onun funksiyalarına məlumatların toplanması və təhlili, polisin işinin əlaqələndirilməsi, eləcə də digər qurumlar və QHT-lərlə əməkdaşlıq və məlumat bölgüsünün təmin edilməsi daxildir.

- **Almaniya (Müvafiq Nazirliklər, Polis və digər milli təşkilatlar)**

  Almaniyanın Ailə Məsələləri, Yaşlı Vətəndaşlar, Qadınlar və Gənclər Federal Nazirliyi 1997-ci ildə “Qadınların Alveri” adlı milli işçi qrupu yaratmışdır və buraya müxtəlif federal və ştat nazirlikləri, Federal Cinayət Polis İdarəsi, eləcə də ixtisaslaşmış məsləhət xidmətləri cəlb olunmuşlar. İşçi qrupunun məqsədi onun üzvləri arasında qadınların alverinə qarşı mübarizəyə dair məlumatların qarşılıqlı ötürülməsini təmin etmək, qadınların alverinə qarşı effektiv mübarizəyə mane ola biləcək problemləri təhlil etmək və birgə fəaliyyət və təklifləri müzakirə etməkdir.

- **Tailand (Dövlət idarələri və QHT-lər)**

  Uşaqlar və qadınların alveri məsələlərinə cəlb olunmuş Dövlət Agentlikləri və Qeyri-Hökumət Təşkilatları (QHT) arasında Əməliyyatlara dair Anlaşma Memorandumu 2003-cü ildə imzalanmışdır. Burada məqsəd uşaqlar və qadınların alverinə qarşı mübarizədə dövlət agentlikləri və QHT-lər arasında birgə fəaliyyəti təbliğ etmək, həmçinin praktiki əməliyyatlardan irəli gələn maneələrin azaldılmasına nail olmaqdır.